

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

1 noyabr
2025-ci il,
şənbə
№ 199 (7026)
Qiyməti
60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Zəfər ayının 1-ci günü

İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşa Bulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:17 PM · Nov 2, 2020 · Twitter for iPhone



# Qütbləri birləşdirən etimad körpüsü

Bax səh. 2

# Milli Məclis bəyanat qəbul edib

## Deputatlar 8 Noyabr - Zəfər Günü münasibəti ilə Prezident İlham Əliyevi və Birinci vitse-prezident Mehriban Əliyevanı təbrik ediblər

Bax səh. 3



## YAP və BBP nümayəndələri Ümummilli Lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

Bax səh. 4

## YAP Mərkəzi Aparatında görüş keçirilib



# Xarici dövlət borcumuz azalıb

Bax səh. 6

## Valyuta Fondunun proqnozları nikbindir

Bax səh. 4

## Sabah hamı üçün gec ola bilər...

Bax səh. 5

## Sözün azad olduğu cəmiyyətlər...

Bax səh. 5

## Yeni sərmayə institutu...

Bax səh. 6

## Pakistan-Əfqanıstan danışıqlarında III raund...

Bax səh. 7



## 33 illik fasilədən sonra...

Bax səh. 7

## Rəqibsiz platformada "döyüş"

Bax səh. 6

# Qütbləri birləşdirən etimad körpüsü



## Siyasətimizin əsas qayəsi: milli maraqları qorumaq, dünyada sülhə və ədalətə dəstək...

**Azərbaycanın qlobal arenada ard-arda qazandığı qələbələrə, nail olduğu beynəlxalq nüfuza və imicə nəzər saldıqda, mühüm bir reallığın şahidi oluruq - ərazisinə görə elə də böyük sayılmayan, strateji coğrafi yerləşmi ilə qlobal mühitin diqqətində olan ölkəmiz beynəlxalq proseslərə münasibətdə vahid, davamlı və ardıcıl münasibət sərgiləyib. Qalib Azərbaycanın xarici siyasət fəlsəfəsi dünyanın qlobal əhəmiyyətə malik prinsiplərini özündə birləşdirir:**
**- Milli maraqlar müstəvisində bərabərhüquqlu münasibətlər;**
**- Beynəlxalq hüquqa hörmət və onun təmin edilməsi;**
**- Ədalət və qarşılıqlı hörmət prinsipləri.**

**Məhz bu dəyərlərə əsaslanan siyasət nəticəsində Azərbaycan həm regional, həm də beynəlxalq səviyyədə tanınan, hörmət edilən və nüfuz qazanan dövlət statusu əldə edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu diplomatiya Azərbaycanın beynəlxalq nüfuzunu sistemli şəkildə artırıb. Azərbaycanın təşəbbüsləri regional sabitliyin və qlobal sülhün vacib dayağı kimi qəbul olunur. Bakı yeni dünya nizamında tutduğu mövqe ilə özünün hədəf və prioritetlərini ortaya qoyur - yürüdülən siyasət gücə deyil, ədalətə, əməkdaşlığa, tərəfdaşlığa və ən əsası qarşılıqlı milli maraqlara söykənən siyasətdir. Azərbaycan bu mənada həm prinsipial mövqeyi, həm də ardıcıl diplomatiyası ilə nümunəvi sabitlik modeli təqdim edir.**

### Sülhpərvər, etibarlı və ardıcıl siyasət...

Azərbaycan beynəlxalq aləmdə hər zaman öz milli maraqlarını qorumaqla seçilib. Bu yanaşma təkcə diplomatik kurs deyil, həm də Azərbaycanın dövlət ideologiyasının ayrılmaz hissəsidir. Ölkəmiz heç bir zaman hansısa qrup maraqlarının alətinə çevrilməyib, beynəlxalq münasibətlər sistemində müstəqil və bərabərhüquqlu oyunçu kimi çıxış edib. Tarixi fakt budur ki, 30 ildən artıq işğal şəraitində yaşamasına baxmayaraq, Azərbaycan bütün münaqişələrin sülh yolu ilə həllinin tərəfdarı olub. Bu prinsipial mövqe həm milli dəyərlərimizə, həm də beynəlxalq hüquqa əsaslanır. Məhz buna görə də Azərbaycan bu gün beynəlxalq münasibətlər sistemində sülhpərvər, etibarlı və ardıcıl siyasət yürüdən dövlət kimi tanınır. Bizim sülhpərvər mövqeyimiz dünyanın aparıcı təşkilatları tərəfindən də yüksək qiymətləndirilir.

### Ədalətsiz tənqidlər - məqsədimiz sülhün, dialoqun və qarşılıqlı anlaşmanın təminidir...

Təəssüf doğuran haldır ki, Azərbaycanın sülhpərvər və ardıcıl, qətiyyətli mövqeyi bəzən əsassız tənqidlərə məruz qalır. Bəzi xarici mətbu orqanlar və qərəzli dairələr ölkəmizin beynəlxalq proseslərdəki neytral xəttini təhrif etməyə çalışır. Onlar Azərbaycanın prinsipial mövqeyini fərqli prizmalardan qiymətləndirərək, sanki ölkəmiz hansısa münaqişələrdə tərəf kimi çıxış edir kimi təqdim edirlər. Son dövrlərdə, xüsusilə də Yaxın Şərqdə baş verən gərginliklər fonunda bəzi media resurslarında Azərbaycanı əsassız şəkildə ittiham edən kampaniyalar müşahidə olunur. Hətta qardaş Türkiyədə fəaliyyət göstərən müəyyən çevrələr belə yanlış təəssürat yaratmağa cəhd göstərir ki, guya İsrail-Fələstin münaqişəsində Azərbaycanın mövqeyi birtərəflidir.

Bu, tamamilə yanlış bir yanaşma, yanlış bir qənaətdir. Azərbaycan hər zaman Qəzza probleminin həllinə töhfə verməyə çalışıb. Ölkəmiz daim insani və humanitar dəstək missiyası həyata keçirib, Fələstin xalqının acınacaqlı vəziyyətinə biganə qalmayıb. Ancaq Azərbaycan bu məsələdə siyasi tərəf kimi çıxış etməyib və etməyəcək də. Bizim əsas məqsədimiz sülhün, dialoqun və qarşılıqlı anlaşmanın təminidir.

### Neytral mövqe və beynəlxalq hüquqa sadiqlik

Bu bir həqiqətdir ki, Azərbaycanın xarici siyasət fəlsəfəsi neytrallıq, ədalət və beynəlxalq hüquqa sadiqlik üzərində qurulub. Biz Fələstin xalqının humanitar vəziyyətinə dəstək göstəririk, amma heç bir münaqişədə tərəf kimi çıxış etmirik. Eyni yanaşma Rusiya-Ukrayna müharibəsinə, Yaxın Şərqdəki böhranlara və digər qlobal proseslərə də aiddir. Azərbaycan nə Rusiya-Ukrayna, nə də Yaxın Şərq münaqişəsində tərəfdir. Biz yalnız sülhün, diplomatik həll prosesinin və beynəlxalq sabitliyin tərəfdarıyıq. O ki qaldı, Fələstinə yanaşmada, 2024-cü ilin yayında Şuşada baş tutan TDT-nin qeyri-rəsmi Zirvə görüşü çərçivəsində imzalanan Qarabağ Bəyannaməsində bu məsələyə də toxunulur - sənəddə Qəzzada baş vermiş humanitar fəlakət vəziyyətinə görə dərin narahatlıq ifadə edilir və mülki əhalinin seçimsiz hədəfə alınması qınanır. Dərhal və daimi atəşkəsin təmin edilməsinə, Qəzzaya maneəsiz humanitar yardımın göstərilməsinə, eləcə də beynəlxalq hüquqa, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə tam riayət edilməsinə, daha sonra İsrail-Fələstin münaqişəsinin iki dövlətli həll əsasında ədalətli və uzunmüddətli həllinə çağırış səsləndirilir. Bildirilir ki, paytaxtı Şərqi Qüds olmaqla 1967-ci il sərhədlərinə əsaslanan, müstəqil, suveren və vahid Fələstin Dövlətinin beynəlxalq səviyyədə tanınması dəstəklənir, Fələstin Dövlətinin BMT-yə üzvlüyə yararlı olduğunu və buna görə də onun BMT-yə üzvlüyə qəbul edilməli olduğunu müəyyən edən BMT Baş Assambleyasının 2024-cü il 10 may tarixli qətnaməsinin qəbul olunması məmnuniyyətlə alqışlanır. Habelə bunu etməyən bütün ölkələr Fələstin Dövlətini tanımağa çağırılırlar.

Beləliklə, mövcud fakt bir daha təsdiqlənir - Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərinə əsaslanır: dövlətlərin suverenliyi, sərhədlərin toxunulmazlığı, daxili işlərə qarışmamaq və sülh yolu ilə nizamlama. Bu prinsiplər həm regionda, həm də qlobal miqyasda ölkəmizin mövqeyini gücləndirir.

### Bərabərhüquqlu münasibətlər və dostluq fəlsəfəsi

Azərbaycan bütün dünya ölkələri ilə bərabərhüquqlu münasibətlər qurmağa üstünlük verir. Bizim üçün ən əhəmiyyətli məqam dostluq, qarşılıqlı hörmət və əməkdaşlıqdır. Xarici siyasətimizdə "qarşılıqlı münasibət prinsipi" əsas xətti təşkil edir - bizə qarşı dost münasibət göstərən hər bir dövlətə eyni səmimiyyət və etimadla yanaşırıq.

Azərbaycan heç bir zaman hansısa siyasi blokun və ya qrup maraqlarının tərkib hissəsi olmayıb. Əksinə, ölkəmiz həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq mexanizmlərinin inkişafına üstünlük verir. Şərqdə, Qərbdə, Şimalda və Cənubda yerləşən dövlətlərlə yüksək səviyyəli əlaqələrimizin möhkəmlənməsi bu siyasətin real nəticəsidir.

Azərbaycan eyni zamanda Qlobal Cənubun inkişafına yardım göstərən ölkə kimi çıxış edir. Biz beynəlxalq arenada ədalət, bərabərlik və insanlıq prinsiplərini müdafiə edirik. Yaxın və Orta Şərqdə sülhün bərqərar olması, xalqların təhlükəsizlik içində yaşaması üçün atılan bütün təşəbbüslərdə Azərbaycanın səsi eşidilir. Son illərdə ölkəmizin vasitəçilik missiyası da beynəlxalq miqyasda diqqət çəkib. Azərbaycan həm Türkiyə-İsrail münasibətlərinin yumşalması, həm də Qəzza bölgəsində humanitar dəstək təşəbbüslərinin irəli sürülməsi istiqamətində önəmli rola malik olub. Bu, ölkəmizin yalnız regionda deyil, bütövlükdə qlobal diplomatiyada mühüm aktora çevrildiyini göstərir.

### Şarm əl-Şeyx sammiti və Azərbaycanın sülh təşəbbüsləri

Azərbaycanın sülhpərvər mövqeyinin növbəti təsdiqi Misirdə baş tutan sülh sammitində iştirakla özünü göstərdi. Bu tədbirdə ölkəmiz sülhü dəstəkləyən dövlət kimi çıxış etdi və beynəlxalq ictimaiyyətə bir daha nümayiş etdirdi ki, Azərbaycan yalnız öz milli maraqlarını deyil, həm də beynəlxalq sabitliyi önə çəkir.

Bu bir həqiqətdir ki, həmin gün bütün dünyanın gözü Şarm əl-Şeyxdə idi. Yaxın və Orta Şərq regionunda atəşkəsin əldə olunması dünya dövlətləri tərəfindən alqışlanırdı. Azərbaycan nümayəndə heyəti də bu təşəbbüsə dəstək verərək, sülhün bərqərar olmasına töhfə göstərdi. Qardaş Türkiyənin də həmin prosesdə aparıcı rolu, Qəzzada sülhə qarant duran dövlətlərdən biri kimi çıxış etməsi, regionun gələcəyi üçün mühüm hadisə idi.

Lakin təəssüf ki, atəşkəs uzun sürmədi. Qısa müddət sonra Qəzza zolağında gərginlik yenidən alovlandı. Bu hal demək olar ki, heç bir dünya dövlətinin ürəyincə deyil - o cümlədən də, Azərbaycanın. Ölkəmiz hər zaman sülh prinsiplərinin tərəfdarı kimi çıxış edib - ədalətli siyasi xəttindən dönməyib.

### Sülhün və etimadın ünvanı...

Bu gün Azərbaycan qlobal mühitdə etibarlı tərəfdaş, sülh carçısı və ədalət müdafiəçisi kimi tanınır. Cənubi Qafqazda formalaşdırdığımız yeni təhlükəsizlik arxitekturası təkcə regional sabitlik deyil, həm də qlobal əməkdaşlıq üçün yeni imkanlar yaradır. Azərbaycanın təşəbbüsü ilə reallaşan regional layihələr - Zəngəzur dəhlizi (TRİPP), Bakı-Tbilisi-Qars dəmir yolu, enerji və kommunikasiya xətləri həm region ölkələrinin rifahına, həm də beynəlxalq əməkdaşlığa xidmət edir. Azərbaycan Suriyada yenidəqurma işlərində fəal iştirakçıdır - paralel olaraq regionda həm də enerji təminatçısı kimi çıxış edir. Bu, ölkəmizin sülhə dayalı inkişaf modelinin bariz göstəricisidir. Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanmaqla yanaşı, insanlıq dəyərlərini, humanizmi və beynəlxalq ədaləti də ön plana çəkir. Biz heç zaman təxribatların, manipulyasiyaların və əsassız ittihamların təsiri altına düşmürük. Əksinə, sakit diplomatiya, faktlara söykənən siyasət və prinsipial mövqe ilə dünyada etimad qazanmışıq. Bir daha vurğulanmalıdır ki, Azərbaycan həm Qərb, həm Şərq, həm Şimal, həm də Cənub üçün müxtəlif qütbləri birləşdirən etimad körpüsüdür. Bizim siyasətimizin əsas qayəsi budur: milli maraqları qorumaqla yanaşı, dünyada sülh və ədalətə dəstək göstərmək. Bu, ölkəmizin XXI əsrdə formalaşdırdığı yeni diplomatik kimlikdir - sülhün, ədalətin və milli maraqların qoruyucusu olan Azərbaycan...

***Pərviz SADAYOĞLU***



# Milli Məclis bəyanat qəbul edib

## Deputatlar 8 Noyabr - Zəfər Günü münasibəti ilə Prezident İlham Əliyevi və Birinci vitse-prezident Mehriban Əliyevanı təbrik ediblər

Oktyabrın 31-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 11 məsələ daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova çıxış edərək oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Konstitusiyasının 30 illiyinə həsr edilən beynəlxalq parlament konfransının keçirildiyini və tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətinin, o cümlədən 8 ölkənin parlament sədrləri və sədr müavinlərinin, eləcə də 7 beynəlxalq təşkilatın təmsilçilərinin iştirak etdiyini xatırladıb. Tədbirdə ümumən 100-dən çox şəxs iştirak edib. O, qeyd edib ki, bu konfrans "Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Məclisin təşkilatçılığı ilə keçirilən 13-cü tədbir idi.

S.Qafarova qarşıdan gələn 8 Noyabr - Zəfər Günü barədə də fikirlərini bildirib. Onun sözlərinə görə, 8 noyabr Azərbaycanın tarixinə müdrik siyasi rəhbərliyin və uzaqgörən hərbi strategiyanın təntənəsi, xalqımızın yenilməz gücünün və qəhrəmanlığının rəmzi kimi daxil olub: "Vətən müharibəsində qazanılmış Zəfərin hərbi və siyasi ölçüsü ilə yanaşı, mənəvi ölçüsü də var və o, milli ruhumuzun dirçəlişini ifadə edir. Bu gün bizə onu da xatırladır ki, dövlətin gücü təkcə iqtisadiyyatda və orduda deyil, həm də bütün ölkə vətəndaşlarının həmrəyliyində və birliyində, Vətənin taleyi üçün məsuliyyət hissindədir. Son illərin hadisələri də göstərir ki, yalnız liderinin ətrafında sıx birləşən, öz torpağında azad yaşamağın nə demək olduğunu bilən xalq haqlarını qorumağa və pozulmuş haqlarını bərpa etməyə qadirdir".

**50 mindən çox insan tarixi torpaqlarında dinc həyata başlayıb**

Spiker deyib ki, ölkəmizin işğaldan azad edilmiş bölgələri bu gün öz həyatının yeni quruculuq dövrünü yaşayır. Yaşayış məskənləri tikilib bərpa olunduqca keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdırlar. İndiyədək 50 mindən çox insan tarixi torpaqlarında dinc həyata başlayıb. "Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın azad edilmiş ərazilərdə aparılan işlərə gündəlik diqqət və qayğısı Qarabağı və Şərqi Zəngəzuru dirçəliş və yeni həyatın rəmzinə çevirib",-deyən S.Qafarova əlavə edib ki, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduqdan sonra iki ölkə arasında münasibətləri normallaşdırmaq üçün sülh danışıqları başlanıb. Həm də bu danışıqlar Azərbaycanın irəli sürdüyü prinsiplər əsasında aparılıb. Avqust ayında Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində əldə olunmuş razılaşmalar, sülh sazişinin paraflanması sülh danışıqlarının yekun mərhələsini təşkil edib. Cənubi Qafqaz regionunda uzunmüddətli sülh, əməkdaşlıq və tərəqqi üçün möhkəm təməl yaradılıb. Ölkəmiz qarşıdakı illərdə sülh və sabitlik şəraitində inkişafını davam etdirərək yeni böyük nailiyyətlər qazanacaq. "Təklif edirəm, Zəfər Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq",- deyə spiker vurğulayıb.

Sonra Milli Məclis 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Bəyanat qəbul edib. Bəyanatın mətnini millət vəkili Vüqar Rəhimzadə oxuyub.

**"Dövlət xidmətləri haqqında" qanun qəbul edilib**

İclasda, həmçinin "Dövlət xidmətləri haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Sənəd 5 fəsil və 20 maddədən ibarətdir. Qanun layihəsi dövlət xidmətləri sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, həmçinin dövlət xidmətlərinin göstərilməsi sahəsində münasibətləri tənzimləyəcək. Dövlət Xidmətlərinin Elektron Reyestri dövlət xidmətləri barədə məlumatları əks etdirən vahid informasiya sistemidir. Bununla yanaşı, layihədə xidmət istifadəçilərinin dairəsi, onların hüquq və vəzifələri də konkret olaraq müəyyən edilib. Dövlət xidmətlərinin göstərilməsində korrupsiya risklərinin azaldılması məqsədilə qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət xidmətinə müraciətlərin ardıcıllıqla həyata keçirilməsi üçün qanun layihəsinə növbəlilik prinsipi gətirilib.

Layihənin qəbul olunması ilə dövlət xidmətinin formalaşdırılmasına dair tələblər müəyyən olunacaq. Sənədə əsasən dövlət xidməti Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edildikdən sonra həmin xidmətin göstərilməsinə yol veriləcək. Qanun layihəsində dövlət xidmətinin göstərilməsi nəticəsi elektron sənəd yaxud kağız daşıyıcıda inzibati akt, hüquqmüəyyənedici və texniki sənədlər şəklində və ya informativ elektron xidmətlər üzrə məlumatın verilməsi ilə həyata keçirildiyi qeyd edilir. Layihədə öz əksini tapan vacib bir məqam ondan ibarətdir ki, dövlət xidmətinin keyfiyyətinə nəzarət mexanizmi müəyyən edilir. "ASAN xidmət indeks" qiymətləndirilməsi mexanizmi daha da təkmilləşdirilərək qiymətləndirilmə aparıldıqdan sonra dövlət xidmətinin keyfiyyətinə nəzarət üçün əsaslardan hesab ediləcək.

Deputatlar "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklikləri də üçüncü oxunuşda qəbul ediblər. Dəyişikliklərə əsasən, avtonəqliyyat vasitələrinə və avtomobil nəqliyyatının infrastruktur obyektlərinə dair ümumi tələblər təkmilləşdirilir. Layihəyə əsasən, ümumi istifadədə olan sərnişin avtomobil nəqliyyatına, habelə müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinə dair ümumi tələblər avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydaları ilə müəyyən olunacaq. Müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri yerlərinin müəyyən edilməsi, onların quraşdırılması, idarə edilməsi və saxlanılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təmin ediləcək.

**Cinayət yolu ilə əldə edilmiş əmlaka görə cəzalar sərtləşdirilir**

İclasda "İpoteka haqqında" qanunda dəyişikliklər də üçüncü oxunuşda qəbul olunub. Qanun layihəsinə əsasən, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi barədə müqavilənin notariat qaydasında təsdiq edilməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması təklif olunur. Dəyişikliyə görə, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ ipoteka saxlayanlar arasında dəyişdirildikdə hüquqlar daşınmaz əmlakın dövlət reyestrində və daşınar əmlakın rəsmi reyestrində sənədlərin təqdim edildiyi gündən 3 iş günü müddətində qeydə alınacaq. Həmçinin, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ dəyişdirildikdə dövlət rüsumu üstünlük hüququnun keçdiyi ipoteka saxlayan tərəfindən ödəniləcək.

Deputatlar Cinayət Məcəlləsində dəyişiklikləri də üçüncü oxunuşda qəbul ediblər. Dəyişikliklərə görə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma ilə bağlı sanksiyalar sərtləşdirilir.Mövcud qanunvericiliyə əsasən, cinayət yolu ilə əldə edildiyini bilə-bilə əmlakın həqiqi xarakterinin, mənbəyinin, yerinin, onlara sərəncam verilməsinin, onların yerdəyişməsinin, belə əmlaka olan hüquqların və ya onların kimə məxsus olmasımn ört-basdır edilməsi və ya gizlədilməsi 4 min manatdan 8 min manatadək miqdarda cərimə və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 2 ildən 5 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Millət vəkilləri iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

*Nardar BAYRAMLI*

# Xarici dövlət borcumuz azalıb

## Borcun məbləği ÜDM-in 6,5 faizini təşkil edir

**Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi tərəfindən 2025-ci ilin 9 ayı üzrə dövlət borcuna dair hesabat hazırlanıb. Sənəd dövlət borcu sahəsində şəffaflığın təmin olunması, dövlət borcu ilə bağlı ictimaiyyətə açıqlanan informasiya dairəsinin genişləndirilməsi və bu sahə üzrə məlumatlara əlçatanlığın təmin edilməsi məqsədilə dərc olunub. Agentliyin hesabatına əsasən, 2025-ci il oktyabrın 1-nə olan dövrdə, Azərbaycanın daxili və xarici borc olmaqla cəmi dövlət borcu 25 milyard 365 milyon manat olmaqla ÜDM-in 19,5 faizini təşkil edir. Maliyyə Nazirliyinin açıqladığı hesabata əsasən, borc portfelinin 8,3 milyard manatı (4,9 milyard dollar) və ya 32,8 faizi xarici dövlət borcunun (ÜDM-in 6,5 faizi ), 17 milyard manatı və ya 67,2 faizi daxili dövlət borcunun (ÜDM-in 13,1 faizi) payına düşür. Xarici dövlət borcu 2025-ci il yanvarın 1-nə olan tarixlə müqayisədə 236,6 milyon manat, daxili dövlət borcu isə 1 milyard 612,9 milyon manat azalıb. Hesabat tarixinə daxili dövlət borcunun 7, 9 milyard manatı dövriyyədə olan dövlət qiymətli kağızlarının, 9,1 milyard manatı isə hökumətin üzərinə götürdüyü dövlət zəmanətli öhdəliklərin payına düşür.**

## Xarici borcun 85 faizi dollar öhdəlikləridir

Xarici borcun faizlər üzrə strukturu da təmkinli siyasət üzrə müəyyənləşib. Belə ki, dəyişkən faiz dərəcəsi üzrə öhdəliklər xarici borc portfelinin 48,9 faizini, sabit dərəcə üzrə öhdəliklər isə 51,1 faizini təşkil edir. Xarici dövlət borcunun 50,7 faizi 5 ilə qədər olan müddətdə, 43,9 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, qalan 5,4 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

Xarici dövlət borcunun valyuta tərkibi isə aşağıdakı kimi təsnifləşdirilə bilər:

* Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları üzrə 3,4 faiz;
* ABŞ dolları ilə 85,3 faiz;
* Avro ilə 6,3 faiz;
* Yapon yeni ilə 3,3 faiz;
* Digər xarici valyutalar üzrə 1,7 faiz

Azərbaycan hazırda xarici borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələri sırasında yer alır. Ölkəmizdə xarici borcun ÜDM-də payı 6,5 faiz olmaqla ümumdünya göstəricilərindən qat-qat aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.

## MDB və Cənubi Qafqazda ən az borca malik ölkə

Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2025-ci ilin birinci yarısında 12,5 milyard dollar olmaqla ÜDM-in 54 faizini təşkil edir. Borcun adambaşına düşən nisbətinə görə də Azərbaycan ən qənaətbəxş vəziyyətə malikdir. Məsələn, Ermənistanda adambaşına düşən borcun həcmi 3,7 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir. Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycana nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43 fazidən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi 495 dollardır. Bütün bu amillər Azərbaycanın öz iqtisadi potensialı sayəsində xarici borcu tam bağlamağa imkan verir.










## Strateji valyuta ehtiyatları xarici borcu 16,6 dəfə üstələyir

Cənubi Qafqaz ölkələrində borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi 2025-ci ilin 1 oktyabr tarixinə Dövlət Neft Fondu və Mərkəzi Bankın birgə rezervləri ilə birlikdə 81,5 milyard dolları məbləğindədir. Bu isə, strateji ehtiyatlarımızın xarici dövlət borcunu 16,6 dəfə üstələdiyini göstərir.

Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddətli strategiya sənədinə əsasən, xarici borcun ÜDM-in 10 faiz üstələməməsi həddi üzrə borclanmanın sabit saxlanması nəzərdə tutulub. Hazırda həmin həddin ÜDM-in 6,5 faiz olmasını nəzərə alsaq, Azərbaycanın xarici maliyyə institutlarından əlavə borc almaq imkanları var. Bu ssenarini izləyən xarici maliyyə qurumları daha aşağı faizlə və uzunmüddətli şərtlərlə ölkəmizə borc təklif edir. Çünki borcun idarəedilməsi strategiyası çox əlverişlidir. Bu kontekstdən yanaşdıqda Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kredit təklifləri irəli sürür. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq Böyük Qayıdışın sürətlə icra olunduğu şəraitdə səmərəli borclanmaya gedilməsi istisna deyil.

## Daxili borcun məbləği niyə çoxdur?

Cari ilin ötən 9 ayı ərzində daxili dövlət borcunun ÜDM-də payı 13,1 faiz təşkil etməklə, cəmi həcmi 17 milyard manata bərabər olub. 25,3 milyard manatlıq borc portfelinin 67,2 faizini təşkil edən daxili borcun həcmi xarici borcun həcmindən 2,2 dəfə çoxdur. Bu rəqəmlər bəzən cəmiyyətdə suallar yaradır ki, niyə daxili borc xarici borcdan xeyli coxdur.Yaxud, niyə hökumət niyə daxili borclanmaya daha çox üstünlük verir?

Məlumdur ki, 2018-ci ilə Azərbaycanda dövlət borcunun idarə olunmasına dair yeni strategiyanın qəbul olunduğu dövrə qədər daha çox xarici kredit təşkilatlarından alınan borclara üstünlük verilirdi. Məsələn, 2015-ci ildə ölkəmizin dövlət borcunun ümumi məbləği təxminən 5 milyard manat təşkil edirdi ki, onun 4,3 milyard manatı (5,5 milyard dollar) və yaxud 86 faizi xarici, 697 milyon manatı və ya 14 faizi daxili borcun payına düşürdü. Həmin dövrdə xarici dövlət borcunun çəkisi ümumi daxili məhsulda (ÜDM) 7,6 faizə, daxili dövlət borcunun payı isə 1,2 faiz təşkil edirdi. Həmin illərdə qlobal bazarlarda baş verən tənəzzüldən qaynaqlanan şoklar Azərbaycanın borc yükünün artmasına əlavə təzyiqləri artıraraq xarici borcun məbləğinin və ÜDM-də çəkisinin artmasına səbəb olurdu. 2015-ci ildə manatın devalvasiyası isə borc məbləğinin manat ekvivalenti ilə yüksəlməsinə və borcun ÜDM-də payının artmasına gətirib çıxardı. Məzənnə dəyişiklikləri nəticəsində cəmi bir il ərzində, 2016-cı ilin yanvar ayında Azərbaycanın dövlət borcunun ümumi məbləği 9 milyard 777 milyon manata yüksəldi.

Qlobal maliyyə bazarlarında yaşanan qeyri-sabitliyin yenidən təkrarlana biləcəyi risklərini nəzərə alan Azərbaycan hökuməti borc portfeli üzrə risklərin effektiv idarə edilməsi və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiya hazırlayaraq həyata keçirməyə başladı. 2018-ci ildən etibarən daxili borclanmaya yönəlmiş strategiyaya üstünlük verildi və bu öz müsbət effektini göstərdi. Daxili borc portfelində əsas yer tutan dövlət istiqrazlarının buraxılışı sayəsində borc strategiyasında əhəmiyyətli nəticələr əldə olundu və bu proses davam etməkdədir. Hazırda 5 və 7 illik dövlət istiqrazlarının emissiyası maliyyələşmə riskinin azaldılmasına töhfə verməklə yanaşı, bazarın böyüməsini də stimullaşdırıb.

Göründüyü kimi, daxili borclanma xərclərinin nisbətən yüksək olmasına baxmayaraq, məzənnə riski və digər xarici təhdidlərdən sığortalanmaq məqsədilə xarici dövlət borcunun azalması strategiyası daha düzgün seçim olmaqla uğurludur.

*E.CƏFƏRLİ*

# YAP və BBP nümayəndələri Ümummilli Lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və “Türk şəhidliyi” abidəsini ziyarət ediblər

Türkiyənin Böyük Birlik Partiyasının (BBP) sədri Mustafa Desticinin rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə ölkəmizə səfərə gəlib.

Səfər çərçivəsində oktyabrın 31-də YAP-ın nümayəndələri və BBP nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.

Daha sonra “Türk şəhidliyi” abidəsi ziyarət edilib. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini və sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman türk qardaşlarımızın xatirəsi anılıb, abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.









## YAP Mərkəzi Aparatında görüş keçirilib

Oktyabrın 31-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türkiyənin Böyük Birlik Partiyasının (BBP) sədri Mustafa Desticinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Ümummilli Lider Heydər Əliyevin ifadə etdiyi “bir millət, iki dövlət” fəlsəfəsinə, tarixi köklərə, ortaq milli-mənəvi dəyərlərə, dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf edərək ən yüksək səviyyəyə çatdığı bildirilib.

Azərbaycanın şanlı Zəfər qazanaraq öz ərazi bütövlüyünü bərpa etməsindən sonra 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin həm ölkələrarası münasibətlərin inkişafı, həm də regionda təhlükəsizliyin təmini və çoxtərəfli işbirliyinin dərinləşdirilməsi baxımından önəmi diqqətə çatdırılıb. Hər iki dövlətin beynəlxalq platformalarda bir-birini fəal şəkildə dəstəkləməsinin milli maraqların təmini və qarşıda duran strateji hədəflərin gerçəkləşdirilməsi kontekstində əhəmiyyəti vurğulanıb.

Azərbaycan-Türkiyə birliyinin Türk dünyasında da əməkdaşlığın genişləndirilməsi, xüsusilə Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində nüfuzlu güc mərkəzi kimi mövqelərinin möhkəmlənməsi və rolunun artması üçün yeni imkanlar yaratdığı qeyd olunub. Bu kontekstdə Türk dövlətlərinin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsinin önəmi də xüsusi vurğulanıb.

Görüş zamanı 2021-ci il iyunun 2-də Əməkdaşlıq Protokolu imzalayan və ötən müddət ərzində ortaq maraqlara əsaslanan mühüm tədbirlər reallaşdıran Yeni Azərbaycan Partiyası ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının münasibətlərinin nümunəvi xarakter daşıdığı vurğulanıb, həmçinin YAP ilə Böyük Birlik Partiyası arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.





# Valyuta Fondunun proqnozları nikbindir

Beynəlxalq Valyuta Fondu (BVF) qlobal iqtisadiyyata dair yeni proqnoz baxışlarını əks etdirən açıqlama ilə çıxış edib. Qlobal iqtisadi mənzərəni əks etdirən təhlil sənədində vurğulanır ki, dünya iqtisadiyyatının 2025-ci və 2026-cı illərdə artım templəri 1-2 faiz aralığında artımla müşahidə ediləcəyi gözlənilir. İnkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında inkişaf proqnozları daha aşağı olacaq. Qlobal ticarətin həcminin aşağı düşməsi iqtisadi artım göstəricilərinin enməsində əsas faktorlardan biri kimi çıxış etdiyindən qlobal mühitdə daralmaların başvermə riskləri mümkündür.

## 2025-2026-cı illərdə ölkə iqtisadiyyatında artım gözlənilir

### Qeyri-neft yığımları inkişafın əsas sütununa çevrilir

Fondun Azərbaycanla bağlı ehtimalları müsbətdir. Fərziyyələrə görə, Azərbaycan iqtisadiyyatı ortamüddətli dövrdə ildə 2,5 faiz artımla müşayiət olunacaq.

Fondun Yaxın Şərq və Mərkəzi Asiya Departamentinin direktoru Cihad Azur bildirib ki, ortamüddətli dövrdə Azərbaycan iqtisadiyyatında artımı formalaşdıran mənbələrdə mühüm rol oynayan neft-qaz sektorunda fiskal daxilolmaların azalmasına baxmayaraq, qeyri-neft mənbələri inkişafın əsas drayverləri olacaq. Ortamüddətli perspektivdə neftdənkənar sahələrin illik artım tempi 3-3,5 faiz təşkil etməklə ümumi inkişafın təmin olunmasına töhfə verəcək. Qeyri-neft sektorunun artmasında əsas amillər biznes sektorunun fəallığının yüksəlməsi, tikinti-inşaat, xidmət, turizm sahələrində yeni əlavə dəyərin formalaşması, neftdənkənar sahələrdə yığım mənbələrinin genişlənməsi, şəffaflaşma ilə bağlı görülən tədbirlər və bölgələrdə yeni müəssisələrin yaradılmasıdır.

BVF-nin cari və ortamüddətli dövr üzrə ssenarilərinə əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft ÜDM-nin həcminin davamlı artaraq ÜDM-də payı 80-82 faizə çatacaq. Qurumun iqtisadi artımla bağlı cari və ortamüddətli dövr üzrə proqnozları Azərbaycan hökumətinin inkişaf ssenariləri ilə təxmini olaraq üst-üstə düşür.

Qeyd edək ki, cari ilin ötən 9 ayı ərzində milli yığımlarda əsas fiskal sütun kimi qeyri-neft mənbələri əsaslı resurs bazası olub. Qeyri-neft-qaz sektorunda daxilolmalar 9 milyard 173,2 milyon manat olub, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 755,7 milyon manat və ya 9 faiz artıb. Ödənilən vergilərin 73,6 faizi qeyri-neft-qaz sektorunun, 26,4 faizi isə neft-qaz sektorunun payına düşüb.

Beynəlxalq Valyuta Fondu Azərbaycan hökumətinin neft amili nəzərə alınmadan yeni iqtisadi model hazırlayaraq həyata keçirdiyi islahatları müsbət səmərərə verəcəyinə də əminliyini ifadə edib. Fond azad biznesin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı qanunvericiliyin daha da təkmilləşdirilməsini müsbət dəyərləndirib, eyni zamanda, sahibkarlıq sektorunda maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsini və bankların özəl sektora daha əlçatan kreditlər verməsini də vacib sayır. Tövsiyələrə əsasən, maliyyə bazarının inkişaf etdirilməsi, biznesin və ailə təsərrüfatlarının bank-maliyyə xidmətlərinə sərbəst çıxışının təmin edilməsi qeyri-neft sektorunun inkişafını daha da sürətləndirə bilər.

### İnflyasiya hədəf göstəriciləri daxilindədir

BVF-nin qlobal istehlak qiymətləri indeksi ilə bağlı da ehtimalları fərqlidir, bəzi regionlarda qiymətlər sabit qalıb, bəzilərində dəyişkənlik baş verib. Qurumun ekspertləri hesab edir ki, 2025-ci ilin ötən 9 ayında inflyasiya bütün region dövlətlərində, qlobal miqyasda sabit qalıb və ya cüzi artım nümayiş etdirib. Hətta enerji və kənd təsərrüfatı məhsullarının qiymətlərinin bir il əvvəlki səviyyəsindən aşağı düşməsi bəzi regionlarda istehlak indeksini zəiflədib. Fondun qlobal əmtəə bazarları haqqında son hesabatına əsasən 2025-ci ilin 9 ayı ərzində qeyri-enerji məhsulları üzrə qiymət indeksi ötən ilin sonuna nəzərən 3,4 faiz azalıb, lakin bəzi əmtəələrin bahalaşması davam edib. Əsas dəyişən qiymət əmsalı qızılda nəzərə çarpıb, bu əlvan metalın qiymətləri 35 faiz artaraq yeni rekord səviyyəyə çatıb.

Beynəlxalq Valyuta Fondunun Azərbaycanda qiymət indeksi ilə bağlı gözləntiləri isə qənaətbəxş hesab edilə bilər. C.Azurun fikrincə, inflyasiya nəzarət altındadır və Mərkəzi Bankın müəyyən etdiyi hədəf göstəriciləri daxilindədir. Bu isə yaxın illərdə qiymət indeksinin sabit çərçivədə qorunub saxlanılacağından xəbər verir.




### Xarici ticarətdə müsbət saldo gözlənilir

BVF-nin departament direktoru xarici ticarət əməliyyatlarında profisitin azalmasını ölkəmizin xarici iqtisadi mövqelərinə təsir göstərəcəyini də istisna etmədiyini vurğulayıb. Qeyd edildiyinə görə, risklər nisbətən balanslaşdırılmış olaraq qalır. Risk faktorlarından biri neft və qazın mümkün ucuzlaşması, digəri isə hər hansı gərginliyin artması və bunun ümumi iqtisadi vəziyyətə təsir göstərə bilməsi ilə bağlıdır. Bununla yanaşı, qeyri-neft ixracının illik artımında nəzərə çarpan dinamika tədiyyə balansının müsbət saldosunun dayanıqlılığını təmin edəcək. Bu, ölkənin strateji ehtiyatlarının da artmasına mühüm təsirlərini göstərəcək. Ümumilikdə, fondun ekspertləri ölkədə tədiyyə balansının cari vəziyyətinin qənaətbəxş olmasını və valyuta bazarının dollara olan tələbatının tam təmin edilməsini fərz edirlər.

**E.CƏFƏRLİ**

# Sabah hamı üçün gec ola bilər...

## Yaşıl keçid: Azərbaycanın qlobal çağırışlarla uzlaşan gündəliyi

**Hazırda bütün dünya üzrə böyük aktuallıq daşıyan çağırışlardan biri ətraf mühit problemləri ilə bağlıdır. Bu günlərdə BMT-nin Baş katibi Antonio Quterreş bəhs olunan mövzuda ciddi narahatlğını yenidən ifadə edib. O bildirib ki, yaxın illərdə Yer kürəsinin temperaturu 1,5°C-dən çox artacaq, lakin bu artımın müvəqqəti olması üçün tədbirlər görmək hələ də gec deyil. BMT-nin Baş katibi Braziliyada keçiriləcək COP30-da toplaşacaq dünya liderlərini zərərli tullantıların azaldılmasını nə qədər çox təxirə salarlarsa, fəlakətli nəticələrin ehtimalının da bir o qədər artacağını etiraf etməyə çağırıb. Onun sözlərinə görə, sammitdə kursun dəyişdirilməsi zərurətinin qəbul edilməsi prioritet olacaq.**



### Milli dövlətlərin məsuliyyəti

Dünya üzrə ekoloji vəziyyətin həyəcanverici səviyyədə pisləşməsi bir sıra amillərdən qaynaqlanır. O cümlədən güclü sənaye inkişafı, emissiyaların artması qlobal istiləşməyə öz təsirini göstərir. Əslində, çox doğru olaraq vurğulanır ki, inkişaf etmiş ölkələrin fəaliyyətləri ətraf mühitə daha çox mənfi təsir göstərir. Təzad ondadır ki, intensiv sənaye fəaliyyətlərinin nəticəsi olaraq meydana çıxan qlobal istiləşmənin fəsadları daha çox dərəcədə belə fəaliyyətlərdən uzaq olan ölkələrin, xüsusilə də kiçik ada dövlətlərinin həyatında hiss olunur. Buzlaqlar əriyir, okeanların səviyyəsi yüksəlir. Belə şəraitdə dörd bir tərəfdən su ilə əhatə olunmuş kiçik ərazilərdə yaşamaq ölüm və qalım arasında mübarizə aparmaq anlamına gəlir.

BMT-nin Baş katibi vəziyyətin kritik dərəcədə ağırlaşmasının bir səbəbi kimi milli dövlətlərin məsulliyyəti məsələsinə diqqət çəkib. O belə bir vəziyyətin səbəbini milli səviyyədə müəyyən olunmuş töhfələrin çatışmazlığı ilə əlaqələndirib. Antonio Quterreş bildirib ki, bunlar iqlimin qorunması üçün hər bir ölkənin Paris iqlim sazişi çərçivəsində müstəqil olaraq hazırladığı fəaliyyət planlarıdır. Hazırda cəmi 62 ölkə öz planlarını BMT-yə göndərib.

BMT çətiri altında 193 ölkənin yer aldığını nəzərə alsaq, deyə bilərik ki, çoxlu sayda dövlət dünya birliyi qarşısında məsuliyyətsizlik nümayiş etdirir. O qənaət hasil olur ki, ölkələrin daha böyük hissəsi ətraf mühit məsələləri ilə bağlı konkret fəaliyyət planlarına malik deyillər və milli səviyyədə öhdəliklərini yerinə yetirmirlər. Əlbəttə, öhdəliklər məsuliyyət deməkdir, bunların yerinə yetirilməsinə vəsait tələb olunur. Görünür, ayrı-ayrı ölkələr bəşəriyyətin problemlərini özlərinin problemləri kimi qəbul etmirlər və vəsaitlərini, gəlirlərini qorumağa çalışırlar. Bu, doğru yanaşma deyil. İndi dünya elə bir təhlükəli nöqtəyə gəlib çatıb ki, qlobal çağırışlara qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi vazkeçilməz zərurətə çevrilib. Sabah hamı üçün gec ola bilər...

Yeri gəlmişkən, digər səviyyələrdə də həyəcan təbili getdikcə daha ucadan çalınır. Avropa İttifaqı (Aİ) 2040-cı il üçün iqlim hədəfini müəyyənləşdirməli olsa da, bir sıra üzv ölkələrdə buna qarşı müqavimət qalmaqdadır.

“Spiegel” nəşri xəbər verir ki, 2 mindən çox avropalı alim, o cümlədən yüzlərlə almaniyalı tədqiqatçı Aİ dövlət və hökumət başçılarına məktub ünvanlayaraq elmi nəticələrə və Paris İqlim Sazişinə sadiq qalmağa çağırıb.

Hazırda Aİ-nin iqlim hədəfləri 2030-cu və 2050-ci illəri əhatə edir. Aİ iqlim qanunvericiliyinə görə, 2040-cı il üçün də konkret hədəf müəyyən edilməlidir. Avropa Komissiyası iyulda təklif edib ki, növbəti 15 il ərzində emissiyalar 1990-cı illə müqayisədə 90 faiz azaldılsın. Bunun bir hissəsi beynəlxalq iqlim sertifikatları ilə kompensasiya oluna bilər.

Alimlər vurğulayıblar ki, 90 faiz hədəfi təkcə siyasi qərar deyil, həm də Avropanın gələcəyini təmin etmək və insanların həyatını qorumaq üçün həyati zərurətdir.




### Avropaya çağırış eşidiləcəkmi?

Belə hədəf düzgün həyata keçirildikdə elektrik xərclərinin azalması, yeni iş yerləri və milyardlarla dollarlıq fosil yanacağı idxalının azalması kimi iqtisadi imkanlar da yaradır. Qeyd olunub ki, daha zəif hədəfin seçilməsi üzv dövlətlər üçün ciddi hüquqi risklər yaradacaq və beynəlxalq hüquqla uyğunsuz qanun və qərarlar məhkəmələr tərəfindən ləğv edilə bilər.

Aİ ölkələrinin ətraf mühit nazirləri noyabrda Braziliyada keçiriləcək Dünya İqlim Konfransı üçün danışıqlar strategiyasını müzakirə edəcəklər. ABŞ-ın Paris İqlim Sazişindən yenidən çıxması, Çinin isə alimlərin tövsiyə etdiyi səviyyədən xeyli aşağı hədəflər təqdim etməsi fonunda COP30-un son dərəcə çətin geosiyasi şəraitdə baş tutacağı gözlənilir.

### COP29 - dünyanın etimadı, Azərbaycanın gücü və məsuliyyəti

Ötən ilin noyabr ayında Azərbaycan təxminən 200 dövlətin dəstəyi ilə BMT-nin ən böyük tədbirlərindən birinə - COP29 iqlim konfransına uğurla ev sahibliyi etdi. Dünya birliyinin respublikamıza böyük etimad göstərməsi bir tərəfdən Azərbaycanın apardığı siyasət, digər tərəfdən isə ölkəmizin müsbət reallıqları ilə bağlıdır. Azərbaycan iqlim dəyişiklikləri ilə bağlı qlobal çağırışları dəstəkləyən və buna öz töhfələrini verən məsuliyyətli dövlətdir. Respublikamız 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Ölkəmiz Milli Məclisin 18 iyul 2000-ci il tarixli qərarı ilə Kioto Protokoluna qoşulub. Azərbaycan həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasını imzalayıb. Azərbaycandan Konvensiya üzrə hesabat öhdəliklərinin bir hissəsi kimi mütəmadi olaraq iqlim dəyişikliyi ilə bağlı əsas məsələlər və həll yollarını tərtib etməklə Milli Məlumat hazırlayır və müvafiq qaydada təqdim edir. Sözügedən hesabatların hazırlanmasında sahələr üzrə məlumatların toplanması və ümumiləşdirilməsi məqsədi ilə hər bir müvafiq sektoru təmsil edən dövlət qurumlarının nümayəndələrindən ibarət İşçi qrupu yaradılıb.

Azərbaycan həmçinin COP tədbirlərində fəal iştirak edir. Xatırladaq ki, Prezident İlham Əliyev 2023-cü il dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasiminə qatılıb. COP28 çərçivəsində keçirilən tədbirlərdə həmçinin ölkəmizin müvafiq qurumlarının, o cümlədən energetika, ekologiya və təbii sərvətlər nazirliklərinin, SOCAR-ın rəhbər şəxsləri mühüm görüşlər keçiriblər və müzakirələr aparıblar.

COP29-a ev sahibliyi hüququnun Azərbaycana verilməsi həm də ölkəmizin yaşıl enerjiyə keçidlə bağlı təşəbbüslərinin beynəlxalq səviyyədə dəstəklənməsi anlamına gəlir. Məsuliyyətli dövlət olan Azərbaycan müvafiq istiqamətlərdə öz fəaliyyətini qlobal çağırışlara adekvat qurur. Ölkəmiz neft istehsalı sahəsində sıfır emissiyasız fəaliyyəti hədəfləyib və bu sahədə qlobal tərəfdaşlığa öz töhfələrini verir. Azərbaycan Dövlət Neft Şirkəti 2008-ci ildən GGFR-in rəhbər komitəsinin üzvüdür. Respublikamızda həyata keçirilən layihələr nəticəsində il ərzində atmosferə atılan 1 milyard kubmetr qaz yığılaraq əhalinin istifadəsinə yönəldilib. SOCAR tərəfindən səmt qazının azaldılması tədbirləri Dünya Bankının Ekspert Şurası tərəfindən bir neçə dəfə ali mükafata layiq görülüb. Hazırda neft hasilatı zamanı səmt qazının emissiyası göstəricilərinin aşağı olmasına görə Avropa İttifaqına neft ixrac edən əsas 10 ölkə arasında Azərbaycan birinci yeri tutur. COP28 çərçivəsində keçirilən tədbirlərdə SOCAR-ın prezidenti Rövşən Nəcəf bütün neft-qaz əməliyyatlarında 2030-cu ilə qədər normal hasilat prosesində məşəldə yandırmaların sıfıra endirilməsinin, 2022-ci il baza dövrü ilə müqayisədə 2030-cu ilə qədər “Upstream” seqmentində emissiya intensivliyinin 30 faiz, 2035-ci ilə qədər korporativ emissiya intensivliyinin 30 faiz azaldılmasının, 2035-ci ilə qədər “Sıfır metan” hədəfinə yaxınlaşmanın və 2050-ci ilə qədər “Xalis sıfır” hədəflərinə çatmanın şirkətin əsas məqsədlərindən olduğunu bildirib.

### Yaşıl iqtisadiyyata keçid strategiyası

Cox doğru olaraq Azərbaycanın COP29-a ev sahibliyi etməsi respublikamızın yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi dəyərləndirilir. Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik İli” elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqidir. Bu təşəbbüs sadəcə rəmzi məna daşımır, həmçinin Azərbaycanın müsbət ekoloji dəyişmələr yaratmaq məqsədi daşıyan ölkələr üçün nümunə olmaq istəyidir, eyni zamanda, gələcək nəsillər üçün daha yaşıl və sağlam gələcəyin qurulması istiqamətində öhdəliyini, strateji məqsədlərini və fəal tədbirlərini əks etdirən addımdır. Azərbaycan COP29-a ev sahibliyi hüququnu öz üzərinə götürməklə bir daha iqlim dəyişikliyi sahəsində beynəlxalq səyləri dəstəkləmək əzmini nümayiş etdirib. Respublikamız, eyni zamanda, milli səviyyədə bərpaolunan enerji və yaşıl keçid prosesi sahəsində ciddi tədbirlər həyata keçirməkdədir, bu istiqamətdə region səviyyəsində və qlobal miqyasda olan tədbirləri yaxından dəstəkləyir.

Azərbaycan yeni qlobal çağırışa ilk qoşulan ölkələr sırasında yer alır. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixində imzaladığı müvafiq sərəncamla “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədi təsdiqlənib. Sənədə əsasən, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş prioritet müəyyənləşdirilib ki, onlardan da biri təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi prioritetidir. Bəhs olunan bu prioritet üzrə yeni strateji dövrdə yüksək keyfiyyətli ekoloji mühitin və “yaşıl enerji” məkanının yaradılması kimi iki məqsədin effektiv reallaşdırılmasına nail olunması nəzərdə tutulub. Bütövlükdə, respublikamızda 2030-cu ilə qədər elektrik enerjisinin istehsal gücündə bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəflənib. Müəyyənləşdirilən zaman çərçivəsində bu hədəfə çatılması tam realdır. Xəzərin Abşeron sahillərində, işğaldan azad olunmuş ərazilərimizdə, Naxçıvanda bərpa olunan mənbələrdən enerji istehsalı üçün geniş imkanlar mövcuddur. Hesablamalara görə, ölkənin bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən külək enerjisi üzrə 3 min MVt, günəş enerjisi üzrə 23 min MVt təşkil edir.

*Mübariz FEYİZLİ*

# Sözün azad olduğu cəmiyyətlər...

**Fikir və söz azadlığı hər bir cəmiyyətin mənəvi “oksigen”idir. Bu oksigen tükənəndə düşüncə boğulur, yaradıcılıq sönür, cəmiyyətin inkişaf ritmi dayanır. Bu gün informasiya əsrində yaşayırıq. İnternet, sosial şəbəkələr, media - bunların hamısı sadəcə məlumatötürmə vasitəsi deyil, ictimai fikrin meydanıdır. Burada hər bir fərd söz, fikir sahibidir. Amma bu meydanda sözün dəyəri, onun məsuliyyəti ilə ölçülür. Azad söz qarışıqlıq deyil, məsuliyyətli azadlıqdır. Çünki azadlıq heç vaxt başqasının azadlığını məhv etmək üçün bəhanə olmamalıdır. Məlumdur ki, plüralizm, yəni çoxfikirlilik, müxtəlif baxışlara dözümlülük - müasir cəmiyyətin əsas dayaqlarından biridir. Tək bir fikirin hökm sürdüyü yerdə inkişaf dayanır. Əsl güc müxtəlif fikirlərin toqquşmasından yaranan yeni ideyalardadır. Əgər gənclərimizi fərqli düşünməyə, sual verməyə, müzakirə aparmağa təşviq edə bilsək, deməli gələcəyin sağlam cəmiyyətini qururuq. Çünki plüralizm təkcə fikir azadlığı deyil, həm də mədəniyyətin, elmin, siyasətin inkişaf mühərrikidir.**

### Məlumat azadlığı - şəffaf cəmiyyətin təməli

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

Məlumat almaq hüququ da fikir azadlığının tərkib hissəsidir. İnsan bilmədiyi, məlumatı çatmayan mövzularda müstəqil fikir formalaşdıra bilməz. Buna görə də şəffaflıq və açıq informasiya axını demokratik idarəetmənin ayrılmaz hissəsidir.

Məlumatın gizlədildiyi yerdə şayiə yaranır, şübhə kök atır, inam itir. Amma məlumatın azad axdığı mühitdə həm dövlət, həm vətəndaş daha məsuliyyətli davranır.

### Demokratiyanın əsas meyarı

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən millət vəkili Azər Badamov bildirib ki, hər bir ölkədə azad medianın yaranması hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas şərtlərindən biri hesab edilir: “Bu gün informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafındakı mövqeyi hər gün artmaqdadır. Etiraf edək ki, bütün ölkələrdə söz və mətbuat azadlığı demokratiyanın əsas meyarlarından biridir. Söz azadlığı senzuraya məruz qalan cəmiyyətlərdə isə insan hüquqlarının tez-tez pozulması hallarına rast gəlinir.

Mətbuat demokratik həyatımızın əvəzsiz elementi, informasiya almaq və yaymaq azadlığının ən təsirli vasitəsi kimi cəmiyyəti maarifləndirmək, düzgün məlumat vermək vəzifəsini yerinə yetirir. Bu vəzifəni azad şəkildə yerinə yetirmək üçün mətbuat azadlığının böyük əhəmiyyəti var. Ölkəmizdə bu hüquq bütün media nümayəndələrinə təklif olunur. İctimaiyyətin və cəmiyyətin sürətli, qərəzsiz və dəqiq məlumat almaq hüququnun təmin edilməsində mühüm rol oynayan belə media mənsublarına hər zaman ehtiyacı duyulur. Fikir azadlığı və demokratiya olmayan, hamının eyni cür düşünməyə məhkum edildiyi ölkələr müxtəlif kriteriyalar üzrə rəqabətdə azad və demokratik dövlətlərə məğlub olurlar”.

### Ölkəmizdə plüralizmi məhdudlaşdıran heç nə yoxdur



A.Badamovun sözlərinə görə, Azərbaycan söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdəndir: “Bu gün ölkəmizin media məkanında mövcud qanunvericilik olduqca təkmilləşdirilib. Azərbaycan demokratiya yolu ilə gedən dövlətdir. Həmçinin 1995-ci ildə qəbul edilən Konstitusiyada söz azadlığı, plüralizm, insan hüquqlarının müdafiəsi və qorunması, vicdan azadlığı, qadın və kişilərin bərabərhüquqlu olması məsələsi açıq-aydın öz əksini tapıb. Sonradan keçirilən referendumlarda da bununla bağlı təkmilləşmələr aparılıb. Qanunvericilikdə söz azadlığı, plüralizmlə bağlı kifayət qədər maddələr var. Bu gün ölkəmizdə plüralizmi məhdudlaşdıran heç nə yoxdur. Azərbaycanda sərbəst toplaşmaq, söz azadlığı haqqında qanunlar yüksək səviyyədə təsbit olunub. Bununla bağlı qəbul edilən qanunların hər biri beynəlxalq ekspertlər tərəfindən nəzərdən keçirilib. Dövlətimiz, eləcə də Milli Məclis yeni qanunların qəbul edilməsinə, mövcud qanunvericiliyin təkmilləşdirilməsində maraqlıdır. Bu, prioritet məsələlərimizdən biridir. Ölkəmizdə hazırda söz azadlığını, plüralizmin inkişafını ləngidən, problem yaradan hər hansı məsələ varsa, parlament bu məsələnin qaldırılmasına müsbət yanaşır. Belə də olmalıdır, çünki cəmiyyət inkişaf etdikcə ictimai münasibətlərdə də müəyyən tənzimləmələrə zərurət yaranır”.

Göründüyü kimi, bütün dünyada azad fikir, azad söz və plüralizm sadəcə hüquqi prinsip deyil, cəmiyyətin dirçəliş formasıdır. Bu azadlıqları qorumaq isə hər birimizin borcudur.

*Yeganə*

# Yeni sərmayə institutu...

## Azərbaycan-Qazaxıstan İnvestisiya Fondunun yaradılması birgə layihələrin icrasını təmin edəcək

**Azərbaycan və Qazaxıstan arasında birgə müəssisələrin və özəl investisiya fondlarının yaradılması imkanları müzakirə olunur. Qazaxıstanın ticarət və inteqrasiya nazirinin müavini Ayjan Bijanova bildirib ki, investisiya fondunun yaradılması birgə investisiya layihələrinin həyata keçirilməsinə möhkəm maliyyə təminatı yaradacaq. İnvestisiya Fondunun əsas fəaliyyət istiqamətlərinə bərpaolunan enerji, aqrar-sənaye, nəqliyyat və logistika infrastrukturu daxildir. Fond vasitəsilə iki qardaş ölkə öz kapitalını prioritet strateji layihələrə yönəltməklə qarşılıqlı maliyyə dayanıqlılığını təmin edəcək. Yeni iqtisadi struktur tərəflər arasında mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi və investisiya fəaliyyətinin fəallaşdırılmasını təşviq edəcək, iki dövlətin işgüzar dairələri arasında birbaşa əlaqələrin inkişafında vasitəçilik funksiyasını həyata keçirəcək. Həmçinin dövlət və özəl sektorun nümayəndələrini vahid sərmayə platformasında birləşdirərək onların qarşılıqlı sərmaye qoyuluşlarının istiqamətlərini müəyyənləşdirərək sərmayə proqramlarının icrasında koordinasiyaedici rol oynayacaq.**

### Dövlət başçısının təşəbbüsü ilə...

Xatırladaq ki, Prezident İlham Əliyevin oktyabrın 21-də Qazaxıstana səfəri çərçivəsində Qazaxıstanın ən nəhəng maliyyə institutu olan "Samruk Kazına Azərbaycan İnvestisiya Holdinqi İnvestisiya Fondu MMC" ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında birgə investisiya mexanizminin təsis edilməsi üçün Çərçivə Sazişi" imzalanıb. Həmçinin, "Samruk Kazına" ilə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) arasında Əməkdaşlıq Memorandumu" sənədinə imza atılıb. Bu hüquqi-iqtisadi baza Azərbaycan və Qazaxıstan arasında birgə investisiya fəaliyyətinin qurulmasını təmin etməklə, müştərək fondun təsis edilməsinə də zəmin yaradır.

Hazırda Azərbaycan İnvestisiya Holdinqi ilə Qazaxıstanın müvafiq İnvestisiya Holdinqi arasında birgə investisiya fondunun yaradılması yekunlaşma mərhələsindədir və yaxın vaxtlarda bu təsisatın da qurulması təmin ediləcək.



### Qırğızıstan və Özbəkistan nümunəsi

Qeyd edək ki, belə bir təsisatın formalaşdırılması türk dövlətləri arasında son illərdə iqtisadi-maliyyə gündəliyinin əsas xəttini təşkil etməkdədir. Belə ki, 2023-cü ildə Azərbaycan-Qırğız İnkişaf Fondu təsis edilib ki, bu qurum aqrar-sənaye kompleksi, energetika, bağçılıq, tekstil, turizm və digər sahələr üzrə prioritet layihələrinə investisiyalar yatırmağı təşviq edir. Fond hər iki ölkənin biznes qurumlarının birgə fəaliyyətinə dəstək göstərir və nəticədə ölkələrimiz arasında əlaqələrin inkişafına və genişləndirilməsinə təkan verməkdədir.

Həmçinin, bir il əvvəl "Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti" yaradılıb ki, məqsəd iki ölkə arasında sərmayələrin qarşılıqlı təşviqinə nail olmaqdır. Fondun maliyyə portfeli hər iki ölkənin resurs imkanları hesabına formalaşır və iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən şirkətlərin kapitalında 49 faizədək paya sahib olmaqla biznesin maliyyələşməsini təmin edəcək. Ofisi Daşkənd şəhərindəki "Trilliant Tower 1" Biznes Mərkəzində yerləşən investisiya şirkətinin nizamnamə kapitalı 500 milyon dollardır. Fondun əsas prioritetlərinə birgə müəssisə statusunda istehsal, emal, ixracyönümlü sahələri qurmaq, idxalı əvəz edən və yüksək texnologiyalı məhsul istehsalını təşviq etmək, müştərək istehsal zənciri qurulmasına töhfə verməkdir. İnvestisiya şirkəti Azərbaycan və Özbəkistan arasında birgə sərmayələrin təşviqi ilə yanaşı, üçüncü ölkələrin ərazisində də qarşılıqlı maraq doğuran istiqamətlərdə ixracyönümlü müəssisələrin yaradılması üzrə birgə layihələrin maliyyələşdirilməsində fəal rol oynamaq niyyətindədir.

### Türk dövlətlərinin vahid investisiya xəzinəsi

Bu model türk dövlətlərinin hər biri üçün önəm daşıdığından vahid investisiya platforması qurulmasına qərar verilib. Türk Dövlətləri Təşkilatı (TDT) tərəfindən 2 il əvvəl qarşılıqlı maliyyə və investisiyaların hərəkətini stimullaşdırmaq, birgə sərmayə yatırımlarını təşviq etmək məqsədilə Türk İnvestisiya Fondu yaradılıb. Ötən il noyabrın 1-dən fəaliyyətə başlayan fondun nizamnamə kapitalı 500 milyon dollar təşkil edir. Fond ilk layihələrin icrasına start verib və yeni sahələrdə sərmayə qoyuluşları planlarını nəzərdən keçirir. İnvestisiya Fondu türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir.

Yeni sərmayə xətləri həm dövlət, həm də özəl sektoru nəzərdə tutur. Xüsusilə də, fondun maliyyə vizyonu daha çox yeni iqtisadiyyat quruculuğu prioritetlərinə əsaslanır ki, burada bərpa olunan enerji, rəqəmsal kənd təsərrüfatı və turizm kimi bir çox sahələrə investisiyaların artırılması mühüm yer tutur. Bundan başqa, fondun investisiya fəaliyyəti beynəlxalq və milli maliyyə və inkişaf institutları, eləcə də ticarət palataları və özəl müəssisələr ilə əməkdaşlığı təmin etmək, nəqliyyat və logistika zəncirlərinin, saxlama və istehsal imkanlarının genişləndirilməsini dəstəkləmək, mikro, kiçik və orta müəssisələrin layihələrini maliyyələşdirmək, rəqəmsal iqtisadiyyatı təşviq etmək və digər prioritetlərə fokuslanıb.

Bu məqsədlərə çatmaq üçün fondun maliyyə portfelinin növbəti mərhələdə daha da artırılaraq 1 milyard dolları ötəcəyi istisna olunmur. Gələcəkdə TİF-nun nəhəng bir maliyyə institutu kimi türk dövlətlərinin Mərkəzi banklarının aktiv maliyyələşməyə cəlb edilməsi, müxtəlif layihələrdə donorluq etməsi, ələlxüsus da səhm və müxtəlif investisiya alətlərinin emissiyasında rol almasında da rolunun artacağı istisna deyil. Eyni zamanda, investisiya fondlarının da bu prosesə qoşulması mümkündür.

Göründüyü kimi, Azərbaycan və Qazaxıstan arasında yaradılacaq İnvestisiya Fondu ümumilikdə, türk dövlətlərinin vahid iqtisadi hədəf strategiyalarının tələblərindən irəli gələn çağırışlardan biridir. Bu qurumun fəaliyyəti sayəsində Azərbaycan və Qazaxıstan arasında iqtisadi əməkdaşlığın səviyyəsi daha da yüksələcək. Bu strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcək.

***E.CƏFƏRLİ***

# Rəqibsiz platformada "döyüş"

## 8-ci Paris Sülh Konfransı haqqında bəzi qeydlər

Bir vaxtlar İrəvan saatlarının əqrəbini Moskva ilə qururdu və Ermənistan rəhbərləri Rusiyanın dövlət və hökumət başçılarının çətirləri altına sığınarkən özlərini çox xoşbəxt hiss edirdilər. İndi isə dəyişən geosiyasi reallıqlar fonunda rəsmi İrəvanın siyasi kursunda korrektələr etdiyinin, saatlarının əqrəbini Paris və yaxud Brüsselə tutuşdurduğunun şahidi oluruq.

Son vaxtlarda Ermənistan rəsmilərinin Avropa paytaxtlarına intensivləşən səfərləri bunun əyani təsdiqidir. Elə bu günlərdə Baş nazir Nikol Paşinyan növbəti dəfə Fransada səfərdə olub. O, səfər çərçivəsində 8-ci Paris Sülh Konfransında iştirak edib və bir sıra müzakirələrə qatılıb.

### Ermənistan Baş nazirinin Parisdə imic axtarışı

Məşhur "Palais de Chaillot" sarayında 29-30 oktyabr tarixlərində baş tutan 8-ci Paris Sülh Konfransı "Sülh, İnsanlar və Planet üçün Yeni Koalisiyalar" mövzusunda keçirilib. Konfransın gündəliyi geosiyasi gərginliklər, münaqişələr və onların həlli yolları, texnologiyalar, iqtisadi və sosial inkişaf, iqlim, ətraf mühitin mühafizəsi və minerallarla bağlı məsələləri əhatə edib. İnformasiya bütövlüyü və müstəqil media mövzusunda yüksək səviyyəli beynəlxalq müzakirələrə Fransa, Qana, Moldova, Monteneqro, Şimali Makedoniya, Barbados, Albaniya, Ermənistan kimi ölkələrin dövlət və hökumət başçıları, digər yüksəksəviyyəli təmsilçiləri, eləcə də bir sıra beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Nikol Paşinyan da bu müzakirələrin iştirakçıları sırasında yer alıb. O həmçinin "Yol ayrıcında liderlik: Parçalanmış dünyada güc və sabitlik tapmaq" mövzusunda panel müzakirələrə qatılıb və çıxış edib.

Hər hansı bir dövlətin yüksəksəviyyəli rəsmilərinin xarici səfərlərə dəvət almaları və beynəlxalq tədbirlərə qatılmaları normal haldır. Ancaq N.Paşinyanın Parisi, necə deyərlər, su yoluna döndərməsi, burada yenidən Makronla görüşməsi, həmçinin konfrans çərçivəsində baş tutan tədbirlərdə səsləndirdiyi adekvat olmayan fikirlər suallar doğurur. Burada bir sıra məqamlar xüsusi diqqət çəkir.

Əvvəla, N.Paşinyanın Ermənistanda daxili gərginliyin pik həddə çatdığı indiki məqamda Parisə səfərə getməsinin hansı vacibliyi zərurətlə bağlı olduğu sualına aydınlıq gətirmək lazımdır. Beynəlxalq təcrübədə belədir ki, ölkələrdə daxili vəziyyət gərginləşəndə, müxalif qüvvələr xüsusi aktivlik göstərəndə əsas siyasi fiqurlar xarici səfərləri ertələyirlər. Bu gün biz Ermənistanda siyasi ajiotaj yaşandığını müşahidə edirik. Seçki hazırlıqları mərhələsində revanşistlər, sabiq prezidentlərə bağlı olan qüvvələr aktivlik nümayiş etdirirlər. Xarici güclərin dəstəyi ilə yeni müxalifət formalaşdırılır. İdeoloji mərkəz qismində çıxış edən kilsə Paşinyana zidd olan qüvvələri konsolidasiya etməklə ona qarşı vahid cəbhə formalaşdırmağa çalışır. Belə mürəkkəb bir şəraitdə birinci şəxsin ölkədə olmaması prosesləri bütünlüklə nəzarətdən çıxması ilə nəticələnə bilər. Paşinyan isə iki seçimdən birini edərək Makronun dəvətini cavabsız qoymayıb. Belə görünür ki, rəsmi İrəvan seçkiöncəsi mərhələdə Yelisey Sarayından müvafiq təlimatlar almağa ehtiyac duyur. Burada həmçinin N.Paşinyanın diplomatik aktivliyini artırmasının onun imicini möhkəmlətməyə hesablandığını da unutmaq olmaz. Baş nazir daxili auditoriyanı inandırmaq istəyir ki, beynəlxalq ictimaiyyət onu əsas lider kimi qəbul edir.

Azərbaycan-Ermənistan tənzimləmə prosesi kontekstində də İrəvan rəsmilərinin Fransaya intensivləşən səfərlərinə, Baş nazirin Makronla müxtəlif platformalarda tez-tez görüşməsinə seyirçi qalmaq mümkün deyil. Fransanın keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində, 44 günlük Vətən müharibəsi zamanı, postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesində oynadığı mənfi rol hər kəsə bəllidir. Prezident Makronun son vaxtlarda ayrı-ayrı beynəlxalq platformalarda Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşlərə can atmasına rəğmən, onun daim birtərəfli qaydada Ermənistanı dəstəklədiyini yaddan çıxarmaq olmaz. Biz xatırlayırıq, keçmiş münaqişənin bütün dönəmlərində, o cümlədən də Makronun hakimiyyətdə olduğu 2018-ci ildən bəri Yelisey Sarayından davamlı olaraq Azərbaycan əleyhinə siyasi bəyanatlar gəlib. Bu ölkənin parlamentində çoxlu sayda qərəzli qətnamələr qəbul olunub. Qeyd etmək yerinə düşər ki, sülhyaratma prosesində müəyyən bir mərhələni təşkil edən Brüssel formatı da böyük dərəcədə Makronun sərgilədiyi yanaşmalara görə iflasa uğrayıb.

### Cənubi Qafqaza sülh gəlir - Paris nədən narahatdır?

Görünən odur ki, Makronun Nikol Paşinyan üzərində təsirləri kifayət qədər böyükdür. Cari ilin yayında Vaşinqton görüşünə ciddi hazırlıqlar aparıldığı vaxtda Baş nazir Parisə səfərə gedərək Makronla müzakirələr keçirdi. Hazırda Azərbaycanla Ermənistan sülhyaratma prosesinin çox mühüm mərhələsinədək irəliləyiblər. Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə vacib razılaşmalar əldə olunub. Necə deyərlər, marafon finişə yaxınlaşmaq üzrədir. Belə bir həlledici məqamda N.Paşinyanla Makronun yenə də bir arada olmalarını təsadüf kimi qəbul etmək mümkün deyil. Görünür, Yelisey Sarayında Baş nazirdən Vaşinqton görüşünün və sülh prosesindəki son gəlişmələrin hesabatını vermək tələb olunur. Paris Cənubi Qafqazda sülh prosesindən kənarda qalması ilə barışa bilmir. Şübhə yoxdur ki, N.Paşinyan Makrondan gələcək fəaliyyətlərlə bağlı da yeni təlimatlar alıb. Ancaq bu təlimatlar Azərbaycanın qətiyyətli siyasi iradəsi fonunda bir işə yarayacaqmı?




Daha bir məqam N.Paşinyanın "Yol ayrıcında liderlik: Parçalanmış dünyada güc və sabitlik tapmaq" panelindəki çıxışında səsləndirdiyi fikirlərlə bağlıdır. Burada o özünü sülh carçısı kimi təqdim edib, ancaq ifadə etdiyi fikirlərdə yenə də mücərrəd danışıb, əsas məsələləri "unudub".

N.Paşinyanın müzakirələrdə nə dediklərinə keçməzdən əvvəl bir haşiyə çıxmaq yerinə düşər. Rəqibsiz platformalarda daha cəsarətli görünməyə çalışmaq, "döyüş" açmaq Ermənistan siyasətçiləri üçün xarakterik haldır. 2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammiti yada salaq. Ermənistanın sabiq prezidenti Serj Sərkisyan Zirvə görüşünün plenar iclasında öz çıxışını bütünlükdə qondarma "erməni soyqırımı" ilə bağlı mülahizələrə həsr edib.

Türkiyənin tədbirdə təmsil olunmamasından sui-istifadə edən Ermənistan rəsmisi bununla da sammitin plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma "soyqırımı" məsələsini qabardıb və Türkiyəni əsas tənqid hədəfi kimi seçib. Serj Sərkisyan bir tərəfdən Türkiyəni qondarma "soyqırımı" ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edib və bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyib. O, çıxışında hər cəhdlə inandırmağa çalışıb ki, Avropa ictimaiyyəti qondarma "soyqırımı" ilə bağlı daha təsirli mövqe tutmalıdır.

Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edirdi və O, cəsarətli çıxışı ilə Ermənistanın sabiq dövlət başçısının yalanını üzə çıxarıb, onu susdurub. "Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur: Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm", - deyə Prezident İlham Əliyev vurğuulayıb.

### Əvvəl S.Sərkisyan, indi N.Paşinyan

Görünür, illər ötsə də, Ermənistan siyasətçilərinin xisləti dəyişmir. N.Paşinyanın bəhs olunan müzakirələrdə səsləndirdiyi fikirlər də zamanında S.Sərkisyanın nümayiş etdirdiyi "cəsarətinə" bənzəyir. N.Paşinyan çıxışında regional kommunikasiyaların açılmasının hər iki ölkə üçün önəmli olduğunu bildirib. Bu fikirlərlə Paşinyan hansısa bir yenilik icad etməyib. Sadəcə, biz onun əsas məsələdən, daha konkret desək, Vaşinqton razılaşmalarının mühüm müddəalarından yayındığının şahidi oluruq. Həmin razılaşmalara əsasən Ermənistan ərazisindən keçən Zəngəzur dəhlizi (Tramp marşrutu) vasitəsi ilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz keçidin təmin olunması nəzərdə tutulub. N.Paşinyan isə rəqibsiz qatıldığı platformada bu mühüm məqama diqqət çəkməyə lüzum görməyərək hər iki ölkə üçün bərabər şərtlərdən və bərabər faydalardan danışıb. Baş nazirin Vaşinqton razılaşmalarının əsas müddəalarından birini, öz öhdəliyini "unutması", sadəcə, riyakarlıqdır. Görəsən, Baş nazir Parisdə kommunikasiyaların açılmasının əhəmiyyətindən danışarkən niyə Ermənistanın suveren ölkə olduğunu dönə-dönə vurğulayır? Axı "maneəsiz keçid" anlayışında müstəqil dövlətin suverenliyinə hər hansı bir təhdid elementi yoxdur.

**P.S. Biz yuxarıda İrəvanın hazırda saatlarını Moskva ilə deyil, Avropa paytaxtlarının saatları ilə tutuşdurduğunu əbəs yerə vurğulamadıq. N.Paşinyan 8-ci Paris Sülh Sammiti çərçivəsində Moldova Prezidenti Maya Sandu ilə görüşüb. Maya Sandunun Avropa paytaxtlarında güclü şəkildə dəstəkləndiyi hər kəsə bəllidir. O, ardıcıl olaraq anti-Rusiya ritorikasından çıxış edir. Beləliklə, N.Paşinyanla M.Sandunu birləşdirən nədir?**

***Mübariz ABDULLAYEV***

# Pakistan-Əfqanıstan danışıqlarında III raund...

## Bu dəfə liderlər İstanbula gələcək

## İki ölkə arasında sülh əldə olunmasa...

**Oktyabrın ilk ongünlüyündən başlayan Əfqanıstan ilə Pakistan arasındakı gərginlik səngimir. Düzdür, hərbi toqquşmalara ara verilsə də, bunun hər an başlama ehtimalı qalmaqdadır. Tərəflər arasında baş tutan ilk iki danışıqlar prosesi də səmərəsiz olub - qeyd edək ki, tərəflər arasında Türkiyə və Qətərin vasitəçiliyi ilə iki danışıqlar raundu keçirilib. 18-19 oktyabrda Dohada, 25-30 oktyabr tarixlərində isə İstanbulda keçirilən görüşün ən mühüm nəticəsi hələlik atəşkəsin əldə olunmasıdır. Tərəflər atəşkəsi davam etdirmək barədə razılığa gəlsələr də, əsas nəticəyə nail olmaq üçün yenidən görüşə ehtiyac duyulur. Bununla bağlı Türkiyə Xarici İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir ki, əlavə icra şərtləri 6 noyabrda İstanbulda keçiriləcək liderlərin görüşündə müzakirə olunacaq və müəyyən ediləcək.**

### Atəşkəs əldə olunub - amma müvəqqəti...

Vurğulayaq ki, oktyabrın 9-da Pakistan təhlükəsizlik rəsmilərinin verdiyi məlumata görə, Əfqanıstan sərhədi yaxınlığında silahlıların hücumu nəticəsində azı 11 pakistanlı hərbçi həyatını itirmişdi. Bununla başlanan toqquşmanın sonradan miqyası böyüdü - “Taliban”ın rəhbərlik etdiyi Əfqanıstan hökuməti isə Pakistanı hava məkanını pozmaqda ittiham etdi. Bildirildi ki, Pakistan qüvvələri təxminən 2600 kilometr uzanan şərti sərhəd olan Durand xətti yaxınlığındakı bazara zərbələr endirib. Sonrakı günlərdə “Taliban” qüvvələri bir neçə istiqamətdən Pakistanın sərhəd mövqelərinə hücum etsə də, geri oturduldu. Pakistan ordusu şimal-qərbdəki Xayber Paxtunxva əyalətindəki Kurram Agentliyindəki nəzarət məntəqələrinə edilən hücuma Əfqanıstan ərazisindəki terrorçu qrupların mövqelərinə zərbə endirməklə cavab verdi. Pakistan Xarici İşlər Nazirliyi daha sonra Əfqanıstanla müvəqqəti atəşkəs barədə razılığa gəldiyini açıqladı.

### Əfqanıstan “Təhrik-e Taliban”a yardım etməyi dayandırmasa...

Münaqişənin başlanma səbəbi kimi isə İslamabadın Əfqanıstanı “Təhrik-e Taliban”a yardım etməsini dayandırmaqla bağlı tələbi göstərilir. Qeyd edək ki, “Taliban” 2021-ci ildə hakimiyyətə qayıtdıqdan sonra Əfqanıstan və Pakistan arasında sərhəd münaqişələri dəfələrlə alovlanıb. Pakistan hökuməti “Taliban”ı İslamabadı təhdid edən “Təhrik-e-Taliban” hərəkatına sığınacaq verməkdə ittiham edir. Qruplaşmanın son dövrlərdə Pakistan təhlükəsizlik qüvvələrinə hücumları artırıblar. Bu il dərc edilən BMT hesabatında yaraqlı dəstənin de-fakto hakimiyyətdən - Kabildəki Taliban hökumətindən əhəmiyyətli dərəcədə logistik və əməliyyat dəstəyi aldığı bildirilir. AFP-nin Pakistan ordusunun sözçüsünə istinadən verdiyi məlumata görə, yanvar ayından 15 sentyabra qədər yaraqlıların hücumları nəticəsində 311 Pakistan əsgəri və 73 polis əməkdaşı da daxil olmaqla 500-dən çox insan həlak olub. “Mənbələr bildirib ki, Kabil rejimi Pakistanın terrorizmlə mübarizə tələblərini tam yerinə yetirməkdə hələ də istəksizdir. Etibarlı mənbələr görüşün fikir ayrılıqları ilə müşayiət olunduğunu bildirib: Pakistan öz təkliflərində israr edib, Əfqanıstan Taliban nümayəndə heyəti isə Kabildən gələn təlimatlara əsasə hərəkət edir”, - deyə telekanal bildirib.

Qeyd edək ki, münaqişə başlandığı gündən etibarən beynəlxalq diqqət mərkəzindədir. Hələ ilk günlərdə ABŞ Prezidenti Donald Tramp bəyan etmişdi ki, Pakistan ilə Əfqanıstan arasında davam edən hərbi qarşıdurmanı nizamlaya biləcəyinə inanır. “Mən eşitmişəm ki, hazırda Pakistanla Əfqanıstan arasında müharibə gedir. Mən indi başqa bir münaqişə ilə də məşğulam, çünki münaqişələrin həlli sahəsində yaxşıyam,” - deyə Tramp jurnalistlərin suallarını cavablandırarkən bildirib.



### Qarşıdurmada Hindistan amili...

Bir sıra siyasi şərhçilər baş verənləri Pakistan-Hindistan münasibətləri çərçivəsində dəyərləndirir. Belə ki, bir zamanlar Əfqanıstanla Pakistan müttəfiq dövlətlər sayılsa da, Talibanın yenidən hakimiyyətə qayıdışından sonra bu əlaqələr fərqli məcra qazanıb - toqquşmaların məhz 9 oktyabrda, Taliban xarici işlər naziri Əmirxan Müttəqinin Hindistana rəsmi beş günlük səfəri dövrü ilə üst-üstə düşməsi də bu mənada təsadüfi sayıla bilməz. Qeyd edək ki, səfər zamanı ikitərəfli əməkdaşlıq, Əfqanıstanda Hindistan infrastruktur layihələrinin bərpası və Kabildə Hindistan səfirliyinin açılmasının mümkünlüyü müzakirə edilmişdi.

Beləliklə, Əmirxan Müttəqinin Hindistana səfəri və “Təhrik-e Taliban”ın Pakistan qoşunlarına hücumu qruplaşmanın İslamabaddan uzaqlaşdığı və artıq etibarlı müttəfiq hesab edilə bilməyəcəyi təəssüratını gücləndirib. Bu mənada, İslamabadın narahatlığı başadüşülləndir - Hindistanın Əfqanıstandakı artan təsiri və fəaliyyəti regionda hərbi və geosiyasi tarazlığı dəyişə bilər və nəticədə “Təhrik-e Taliban” fəallaşdırılar. Onsuz da Pakistanın bəzi regionlarında, əsasən puştun bölgələrində həmin qruplaşmanın yaratdığı təhlükə ölkənin təhlükəsizliyinə və ərazi bütövlüyünə təhdiddir.

### İqtisadi nizamsızlıq: kimə nə sərfəlidir?

Ciddi gərginliyə baxmayaraq, Əfqanıstanın Pakistandan iqtisadi asılılığı da mövcuddur - Pakistanla münasibətlərin kəsilməsi Talibanı Karaçi və Qvadar limanlarına çıxışdan məhrum edəcək ki, bu da kövrək Əfqanıstan iqtisadiyyatına ciddi zərbə vuracaq. Bu vəziyyət təkcə Hindistana (Əfqanıstanda siyasi təsirini genişləndirmək və Pakistana təzyiq göstərmək baxımından) deyil, həm də digər region ölkələrinə (Əfqanıstanda milyardlarla dollarlıq ticarət dövriyyəsi və Karaçi və Qvadarı əvəz edə biləcək limanları ilə) fayda verir. İlk baxışda bu minimal iqtisadi “fayda” da heç bir dövlətin marağında deyil - çünki Əfqanıstandakı hər hansı bir qeyri-sabitlik bütün Yaxın Şərq, Orta Asiya və bölgənin təhlükəsizliyinə təsir göstərir. Bu, xüsusilə Pakistanın strateji tərəfdaşı və Talibanla proqnozlaşdırıla bilən münasibətlər axtaran Çin üçün keçərlidir. Davam edən hərbi qarşıdurma Sincanı Qvadar limanı ilə birləşdirən Çin-Pakistan İqtisadi Dəhlizini (CPEC) iflic edə bilər. İran isə qanunsuz sərhəd keçidləri ilə mübarizə aparmaq üçün Xorasan Rəzəvi əyalətində Əfqanıstanla sərhəddə 74 kilometr uzunluğunda, 4 metr hündürlüyündə tikanlı məftillərlə örtülmüş beton divar tikir.

Rusiya da münaqişənin qızışmasında maraqlı görünmür - bununla belə, Əfqanıstanda və ümumiyyətlə Mərkəzi Asiyada artan hər hansı qeyri-sabitlik Moskvanın regionda hərbi mövcudluğunun və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın - həm KTMT daxilində, həm də ikitərəfli şəkildə - əhəmiyyətini gündəmə gətirə bilər.

Digər tərəfdən, Pakistan və Taliban arasında silahlı qarşıdurma Mərkəzi Asiyanı xarici bazarlarla birləşdirən infrastruktur layihələrinin - nəqliyyat, tranzit və enerji layihələrinin həyata keçirilməsinə mane olur.

Beləliklə, Pakistanla Taliban arasındakı gərginliyin ortamüddətli perspektivdə Avrasiyada regional təhlükəsizlik üçün əsas məsələ olaraq qalacağı qənaətinə gəlmək olar. Şübhəsiz ki, regional və regiondan kənar aktorlar Əfqanıstan-Pakistan münasibətlərini diqqətlə izləməyə davam edəcək - diqqət isə yenidən İstanbula dikiləcək...

*P.İSMAYILOV*

# 33 illik fasilədən sonra...

## “Nüvə sınaqlarına dərhal başlanılsın!”

Hazırda dünya olduqca kritik bir dönəmdən keçir. Ayrı-ayrı regionlarda alovlanan qanlı müharibələr ağır fəsadlara, o cümlədən də insan faciələrinə, humanitar fəlakətlərə yol açır. Belə kədərli mənzərə fonunda BMT-nin, nüfuzlu ölkələrin və liderlərin sülh çağırışları da getdikcə daha az eşidilir və yaxud ümumiyyətlə nəzərə alınmır.

Son günlərdə isə güc mərkəzləri nüvə ritorikasını gücləndiriblər. Belə qənaət hasil olur ki, dünya sülh çağırışlarının silahlarla susdurulduğu mərhələni keçərək indi də nüvə təhdidləri ilə üz-üzə qalıb.

**Trampın Pentaqona təcili göstərişi**

Qlobal miqyasda böyük narahatlığa səbəb olan həyəcanlı xəbər bu dəfə dünyanın siyasi mərkəzindən - Vaşinqtondan gəlib. Ağ Evdə fəaliyyətə başladığı gündən özünü sülh prezidenti kimi təqdim edən Amerika Birləşmiş Ştatlarının dövlət başçısı Donald Tramp “Truth” sosial şəbəkə hesabında Pentaqona nüvə sınaqlarına dərhal başlamaq barədə göstəriş verdiyini yazıb.

D.Trampın sözlərinə görə, ABŞ-ın digər ölkələrdən daha çox nüvə silahı var.

O bildirib ki, bu vəziyyət onun ilk prezidentliyi dövründə mövcud nüvə silahlarının tam yenilənməsi və modernləşdirilməsi nəticəsində əldə edilib. “Nəhəng dağıdıcı gücə malik olduğuna görə bunu etmək istəməzdim, amma başqa seçimim yox idi. Rusiya bizdən sonra ikinci, Çin isə üçüncü yerdədir. Bu, həmin 5 il ərzində belə olacaq. Digər ölkələr sınaq proqramları həyata keçirdiyi üçün mən Müdafiə Departamentinə nüvə silahlarımızı bərabər əsaslarla sınaqdan keçirməyə başlamağı tapşırdım. Bu proses dərhal başlayacaq”, - deyə Tramp əlavə edib.

Pentaqonun nüvə sınaqlarına başlayacağını vitse-prezident Cey Di Vens də təsdiqləyib. O Trampın göstərişini “Bizim böyük bir arsenalımız var. Aydındır ki, rusiyalılar da böyük bir nüvə arsenalına sahibdirlər. Çinlilərdə də var. Bəzən onun işlədiyinə, daha doğrusu, düzgün işlədiyinə əmin olmaq üçün onu sınaqdan keçirmək lazımdır” şəklində əsaslandırıb. Lakin vitse-prezident ölkəsinin sınaqlar zamanı nüvə partlayışlarını bərpa etməyi planlaşdırıb-planlaşdırmadığını dəqiqləşdirməyib.

Ağ Evdən gələn siqnal kifayət qədər ciddidir. Cey Di Vensin sözlərindən də aydın olduğu kimi, nüvə arsenalının sınaqlara cəlb edilməsi nüvə düyməsinin basılması üçün son hazırlıq mərhələsi anlamına gəlir. Yəni hər şey starta hazırdır, qalır siyasi rəhbərliyin qərar verməsi və hərbçilərin onu icra etmələri.

**Dünyada nə qədər nüvə başlığı var?**

BMT-nin təşəbbüsü ilə imzalanan “Nüvə Silahının Yayılmaması Haqqında Müqavilə”yə əsasən, nüvə dövlətləri 1967-ci il yanvarın 1-nə qədər nüvə sınaqları keçirən ölkələr hesab olunur. Bu tarixdən sonra sınaq keçirən ölkələrin nüvə dövləti olması qanunsuz elan edilib. Lakin dünya xəritəsinə diqqət yetirdikdə, 1967-ci ildən sonra da nüvə sınağı keçirən ölkələrin, hətta bunu gizli gerçəkləşdirən ölkələrin olduğunu görə bilərik.

Bəhs olunan müqavilə 1970-ci ildə qüvvəyə minib. Bu müqavilənin məqsədi nüvə silahlarının və texnologiyalarının yayılmasının qarşısını almaq, nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində beynəlxalq əməkdaşlığı təşviq etmək və tədricən nüvəsizləşməni təmin etməkdir. Hazırda bu müqaviləyə 191 ölkə qoşulub.

Beynəlxalq Nüvə Silahlarının Ləğvi Kampaniyasına (“ICAN”) görə, 9 ölkənin nüvə silahı var: Rusiya, ABŞ, Çin, Fransa, Birləşmiş Krallıq, Pakistan, Hindistan, İsrail və Şimali Koreya. Qurumun yaydığı məlumatda dünyadakı təxminən 12 min 331 nüvə başlığından 5 min 500-dən çoxunun Rusiyanın, 5 min 044-nün isə ABŞ-ın arsenalında olduğu bildirilir.

**Kədərli izlər qoyan nüvə sınaqları**

İndiyədək real hərbi əməliyyatlarda nüvə silahından yalnız bir dəfə - 1945-ci il avqustun 6-sı və 9-da Yaponiyanın Xirosima və Naqasaki şəhərlərində istifadə olunub. ABŞ təyyarələrinin Yaponiyanı sülhə təhrik etməsi üçün bu dəhşətli silahı tətbiq etməsi nəticəsində 300 min insan həlak olub.



Nüvə sınaqlarının əsası da bu dağıdıcı silahın ilk dəfə icad olunduğu ölkədə - ABŞ-da qoyulub. Məhz bu ölkə 1945-ci il iyulun 16-da Nyu-Meksiko ştatının Alamoqoro səhrasında 20 kilotonluq atom bombasının ilk sınağını keçirib. ABŞ-da son nüvə sınağı isə 23 sentyabr 1992-ci ildə Nevada ştatındakı yeraltı mərkəzdə “Divider” kod adı ilə həyata keçirilib.

Artıq tarixə qovuşmuş Sovet İttifaqı 1949-cu ildən 1991-ci ilə qədər 727 nüvə sınağı keçirib. Rejim dağıldıqdan sonra keçmiş Sovet İttifaqının nüvə arsenalı Rusiyada qalıb. Rəsmi məlumatlara görə, Rusiya 1991-ci ildən indiyədək nüvə partlayış sınağı aparmayıb. SSRİ-nin 1961-ci ildə Novaya Zemlya adalarında sınaqdan keçirdiyi “Çar bombası” indiyədək sınaqdan keçirilən ən güclü nüvə silahı sayılır. Partlayış zamanı təxminən 50 meqaton enerji sərbəst buraxılıb. Bu güc ABŞ-ın Xirosima və Naqasakiyə atdığı bombaların cəmindən 1570 dəfə çox idi. Partlayışın yaratdığı göbələk buludu 70 km hündürlüyə qalxmış, effekt isə 1000 km aralıdakı Finlandiya və Norveçə, hətta Qrenlandiyaya qədər müşahidə edilib. Alimlərin qənaətinə görə, nüvə sınaqlarının ətraf mühitə vurduğu ziyanın və digər yan təsirlərinin miqyası hədsiz dərəcədə böyükdür.

**Bəs niyə indi?**

Məlumatdan da göründüyü kimi, ABŞ indiyədək son nüvə sınağını 33 il bundan qabaq həyata keçirib. Bəs hansı zərurət yaranıb ki, Vaşinqton uzun zaman kəsiyini əhatə edən fasilədən sonra nüvə sınağına dərhal qayıtmağı lazım bilib?

Analitiklər D.Trampın Pentaqona verdiyi məlum göstərişi son günlərdə Rusiyanın bir sıra modern silahları təqdim etməsinə cavab kimi dəyərləndirirlər. Rusiya Sovet İttifaqı dövründən sonra heç bir nüvə partlayışı həyata keçirməsə də, nüvə başlığı daşıya bilən silah sistemlərinin sınaqları davam edir.

Elə bu günlərdə Rusiya Prezidenti Vladimir Putin “Poseydon” adlandırılan insansız sualtı torpedonu təqdim edib. O, nüvə başlığı daşıya bilən və nüvə enerji mənbəli insansız sualtı vasitənin uğurla sınaqdan keçirildiyini açıqlayıb. İddialara görə, təqdim olunan insansız torpedonu əngəlləmək mümkün deyil. Putin bildirib ki, “Poseydon” ənənəvi sualtı qayıqlardan daha sürətlə hərəkət edir, dərinliyə enə bilir və dünyanın hər hansı bir qitəsinə çatmaq qabiliyyətinə malikdir. Ekspertlər “Poseydon”un hədəfin sahilinə yaxınlaşdırılaraq partladılacağını və sahildəki obyektlərin həm partlayışın təsiri, həm də yaranacaq sunamilər nəticəsində məhv olacağını vurğulayırlar. Rusiya həmçinin “Burevestnik” raketini sınaqdan keçirib. Bu raket də nüvə başlığına malikdir.

Beləliklə, D.Trampın nüvə sınaqlarına başlamaqla bağlı Pentaqona göstəriş verməsi Rusiyanın əfsanəvi saydığı silahları təqdim etməsinə cavab olaraq edilmiş məcburi gediş kimi görünür. Bununla belə, analitiklər o qənaətdədirlər ki, Trampın Moskvanın nüvə təhdidinə elə nüvə təhdidi ilə cavab verməsi onun Nobel Sülh Mükafatı almaq arzusunu növbəti ildə də ertələyə bilər.

*Mübariz ABDULLAYEV*

# Ət yeməyənlərin günüdür...

Dünyada sürətlə yayılan yeni bir həyat tərzi var - veqanlıq. Bu, təkcə qidalanma rejimi deyil, həm də bir dəyərlər sistemi, dünyagörüşü və vicdanın səsidir. Veqan insanlar heyvan mənşəli məhsullardan - ət, süd, yumurta, bal, dəri, yun və s. istifadə etmir. Çünki inanırlar ki, hər bir canlının yaşamaq haqqı var və insan öz rahatlığı naminə digər canlıların həyatını əlindən almamalıdır.

Vegetarianlıq qədim zamanlardan Roma, Hindistan və Yunanıstanda ciddi riayət olunan bir qidalanma sistemidir. İlk dəfə Vegetarian sözü 1842-ci ildən istifadə edilməyə başlanıb. Araşdırmalara görə, günümüzdə Hindistandakı vegeterianların sayı bütün dünyadakı vegeterianların sayından daha çoxdur. Veqan həyat tərzini seçənlərin sayı artdıqca mağazalarda veqanlara özəl hazırlanmış qida məhsullarının çeşidi, veqan yeməklərinə diqqət göstərən otel və restoranların sayı da artır.




1994-cü il noyabrın 1-də İngiltərədə keçirilən Veqan Cəmiyyətinin 50-ci ildönümündə vegetarian heyvan hüquqları müdafiəçisi Louise Wallis bu tarixi Beynəlxalq Veqan Günü olaraq elan edib. Veqan Cəmiyyətinin prezidenti kimi onun məqsədi təkcə Veqan Assosiasiyasının davamlı mövcudluğunu vurğulamaq deyil, həm də “veqan” sözünün ingilis dilinə keçməsinə diqqət çəkmək idi.

Əslində, veqanizm ideyasının ən az 2000 il əvvəl və vegetarianizm ideyasının (ət yeməmək) ondan 500 il əvvəl mövcud olduğu təxmin edilir. 1806-cı ilə qədər isə veqan həyat tərzi artıq formalaşmağa başladı. Əvvəllər veqanlar süd məhsullarından imtina etdi, daha sonra bu sıraya yumurtalar da daxil edildi. 1951-ci ilə qədər veqanlar artıq bütün heyvan mənşəli məhsullardan imtina etdi. Veqanların birləşərək İngiltərə Veqan Cəmiyyətini yaratması 100 ildən uzun çəkdi.

Veqan Cəmiyyəti 1944-cü il noyabrın 1-də Donald Uotson tərəfindən yaradılıb. O, ingilis mənşəli “vegetarian” sözünün ilk 3 və son 2 hərfini götürərək “veqan” sözünü yaradıb. Onun bu cəmiyyəti məhz 1 noyabr tarixində yaratmasına səbəb 31 oktyabrda keçirilən “Halloween” bayramı ilə 2 noyabrda qeyd olunan Meksika Ölülər Günü arasına düşməsi idi.

**Vegetarianlığın sərt forması olan insanlar...**

-tərkibində heyvan mənşəli komponentləri istisna edən yalnız bitki mənşəli məhsullarla qidalanırlar;

-həm ətdən, həm də süd, bal, pendir, yumurta və heyvanlardan alınmış hər cür qida növündən imtina edirlər;

-dəri, xəz, yun və ipək paltar əsla geyinmirlər;

-heyvanlar üzərində sınaqdan keçirilmiş məhsullardan istifadə etmirlər və s.

Veqanlar heyvanlara əziyyət edilməsinin, öldürülməsinin və onlara qəddar rəftar edilməsinin qarşısını almağa çalışırlar. Onlar bu gün dünyanın müxtəlif ölkələrində Beynəlxalq Veqan Gününü xüsusi şəkildə qeyd edərək veqan həyat tərzinin yayılmasına, bu haqda insanların məlumatlılığının artmasına önəm verirlər. Onlar heyvanlara əziyyətin qarşısının alınmasında son dərəcə haqlıdırlar. Bəs bütün heyvan mənşəli qidalardan imtina etmək insan sağlamlığına necə təsir edər? Bir çox tədqiqatçılar bu həyat tərzinin sağlamlıq üçün bəzi təhlükələr yaratdığını qeyd edirlər. “Heyvanlara əziyyət olunmasın, amma insanlar da bu həyat tərzini seçməklə özlərinə əziyyət etməsin”,-deyə düşünürlər.

*Yeganə BAYRAMOVA*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# ŞƏNBƏ ÜÇÜN NƏZM







*Nadir Yalçın*

### LEYSANDA

Şəhər yatıb, gecə oyaq, navalçalar sayıqdı,
bu gecənin sözü yaş-yaş yazılır çökəkliyə.
Alınmayan misralarım gölməçədə qayıqdı,
şam ağacı necə məğrur!
Hey boylanır səkiyə...

Səkilərin sakinləri mürgü döyür hardasa,
qaldırımlar təlatümlə hey boylanır - boğulur.
Küçə boyu işıq saçır etibarlı dirəklər -
müştərisi ərşə çıxan baqqalları yoluxur.

Təkəmseyrək gözün yumur hənirli pəncərələr,
pərdələrin meh arzusu...
çaydanların buxarı...
Gözlərini yumub daha rəngli avtomobillər,
yağmurlar da geri dönür, Allahacan - yuxarı.

Gözləyəcək bu sabahı şam ağacı, dirəklər,
bir də kağız qayıqlar, pərdələr, pəncərələr.
Baqqallar gözləyəcək müştərisin təlaşla,
bir işıq dirəkləri, bir də yamyaş pişiklər.

Gözətçi daxmasının işığı sönməyəcək,
bu gecə də, sabah da, ondan sonrakı gün də.
Yenə yağış yağacaq, yenə günəş doğacaq,
bu gecə də, sabah da, ondan sonrakı gün də.

Bu gün səni sevmək
Gözəldir dünən səni sevməkdən.
Sabah səni sevmək qədər
Heç nə gözəl ola bilməz.
Ola bilməz bu eşq bir günah ola,
ya bir huş, ya röya, ya da ah ola,
bütün zülmət gecələrim sənintək sabah ola,
sabah səni sevmək qədər
heç nə gözəl ola bilməz.

**

Ukraynada sökdülər Puşkinin heykəlini,
qoymadılar həmvətənlərinin mərmisindən,
bir rus zabitinin gülləsindən,
ağ, göy, qırmızı rəngə bürünmüş
tankın lüləsindən sökülsün.
Qoymadılar özünü güllələsin Puşkin,
özü özünə silah sıxsın.
Üzünə qan sıçramadan sökdülər
Puşkinin heykəlini Ukraynada.

Həyətində sərçələr cikkildəşən, dəhlizlərində
dümağ xalatlı şəfqət bacıları dolaşan,
məşhur və mərhum akademikin adını
daşıyan doğum evində
bomba partlayışında ölən körpələri seyr etməyi
rəva bilmədilər Puşkinə.
Özünü öldürməyi
rəva bilmədilər...

Bu dəfə müharibə Dantesdən də qəddar...
Sökdülər Ukraynada Puşkinin heykəlini.

Puşkinin heykəli söküləndə Ukraynada
günəş saçlı, mavi donlu,
bayraq kimi məğrur bir qız
sevindi mərmisiz, gülləsiz sökülən heykələ.
Mərmisiz, gülləsiz gözləyirdi sevgilisini də.
Dikəldib qamətini pıçıldadı səssizcə:
"Qafqaz altımdadır,
ən müdhiş olan zirvədə mən,
tutmuşam tək uçurum qarlı dağ üstündə qərar".

### Məmməd İsmayıla...

Bir adam yol gedir bizdən qabaqda,
bir adam qarşıda çıraq yandırıb.
Kimsə səfərindən, səfindən azıb
kimsə yazdığını tərsinə yazıb.
Kimsə qorxusundan məzarın qazıb...
Bu adam yolların özünü yorub -
bir adam yol gedir bizdən qabaqda.

Kərəm kərəmliyin itirə bilməz,
Fərhad qaya əzmin itirə bilməz,
daha bu yollar da, bu yolçular da
min daşa-kəsəyə, zavala gəlməz -
bir adam yol gedir bizdən qabaqda.

Ay adam,
ay bulud,
ay məhək daşı,
milyon addım gəzsən Yer kürəsini,
nə vaxtsa izini ot basa bilməz.
Qəddi qələm olan söz sarvanının
qırx quldur yığışsa, yolun kəsəmməz.

Yaz sənin üzünün nuruna gəlir,
yazın müjdəçisi sənin yolundur,
kədərin yoludur, qəmin yoludur.
Bahar arzularım çiçək açırsa,
sevginin yoludur bu getdiyin yol.
Baxım addımına gərək doyunca,
cığırın boyunca bahar axtarım.
Ay məndən qarşıda gedən ipək yol,
danış, hər kəlməndə nübar axtarım.

Qapını döyməyə gələn sözdü, söz,
bu ərk qapısını hər dəm özün aç.
Onəlli döyürəm qapını bu gün,
yüzəlli yapışan söz yaxasından,
minəlli yapışan köz yaxasından
şairin qapısın döyürəm bu gün,
biryolluq gələn var qapına hər gün.

Qarşıda yol gedən kimdi, görəsən?
Qarşıda yol gedən, ay torpaq adam,
ay dastan, ay qopuz, ay çıraq adam,
nə qədər bu yol var, qalacaq adam -
bir adam yol gedir bizdən qabaqda.

### BİR BÜRKÜLÜ İYUL AXŞAMI

Qonşumuz Əhməd atası ölən gün
qızdırmadan yananda,
başının üstündə nənəsi ağlayanda,
qonşumuz Əhməd yerindən dikəlib
məzlum-məzlum baxanda, baxıb-baxıb
qara yaylıqlara axıb-axıb:
"Məktəbə gedəndə,
uşaqlar atamı soruşanda,
xar tut dəyəndə,
köynəyim bulaşanda,
Alagöz itəndə,
yonca bitəndə
bu qədər camaata nə deyəcəm?"
- Qonşumuz Əhməd hönkürəndə,
bayatıların səsi batanda
bir bürkülü iyul axşamıydı.

Bir bürkülü iyul axşamıydı,
iyul axşamıydı lap bürkülü.
Qonşumuz Əhmədin istidən öldüyü,
atasının eləcə öldüyü iyul axşamıydı.
Elə axşamıydı, elə...
Bağda meyvənin yaxşı vaxtı, ən yaxşı vaxtı,
lap yaxşı vaxtı öldü qonşumuz Əhmədin atası.
Qonşumuz Əhməd sübh çağı -
atasının vida vaxtı
bağa tərəf boylanıb:
"Meyvənin bu vaxtı adam da ölər?"
- dedi ağzında şirəni tamsınıb,
əriyi tamsınıb,
gilası tamsınıb,
ağzının dadının son axşamıydı.
Qonşumuz Əhməd qızdırmadan
yananda,
əriyin yanağı qızaranda,
sübh çağı qara rəngdə açılanda
bir bürkülü iyul axşamıydı.

Küknar meşəsindən düşmüşdü
axşam, düşməmişdi,
hardansa gətirib salmışdılar
qonşumuz Əhmədin atası ölən axşamı.
Hava dayanmışdı, su dayanmışdı,
Allah da dayanmışdı.
Ayaq saxlamışdı küçədən keçənlər.
əllərini əlinə vurub elə hey deyirdilər:
"Yazıq Əhməd, yazıq Əhməd..."
Yetim qaldı qonşumuz Əhməd
Bir bürkülü iyul axşamı.

### SƏRÇƏLƏRİN İYUNU

Günəş pərdəni ram edib
şığıdı yazı masasına.
Hardasa bir qoca baxarkən əsasına
hovuza tullanan uşaqlar əl elədi səmaya.
Yuxarı mərtəbədəki qonşu
eyvana çıxıb palaz çırpanda
radiodakı nəğməyə səs verdi.
Gurultuyla gələn leysan tez səngidi.
Kim isə çağırır kimsəni, kim isə salam verir
əvvəlkindən daha tez.
İndi səhər tələsir, yubanır gecə.
Xəzri əsir...
İyundu.

Qaldırımlar rəngini dəyişir,
Tut boyayır səkini.
Küçələr məst, insanlar sərməst,
günlər, saatlar xoş.
Payıza qalmayan toyların səsi
təzə ayın bağrından qopur.
Açıq havadakı çayxanalar söhbətgaha çevrilir.
Fatmayi bağlarında sayrışır meynələr.
Gözləyir qonağını dənizkənarı restoranın gənc,
yaraşıqlı, universitetin qiyabisində
oxuyan ofisiantı.
Fəvvarələrin ecazkar fantanı çiləyir
damcılarını öz kölgəsinə.
İyundu.

Sərçələr tut ruzisini dadıb cikkildəşir,
boğazlarını qovuşdurur şirə.
Sərçələr gölməçələrdə çimişir,
elə yaraşırlar şəhərə...
Sərçələr yad ölkələrdən qayıdan quşları
doğma nəvazişlə qarşılayır, daimi sakin kimi...
Bu tut ağacları Allahın sərçələrə ehsanıdı.
İyun sərçələrin iyunudu,
hər yer sərçələrin...

### ADAŞIM DAŞ

Təkcə adımı həkk etdiyim daş qalıb -
Qalib daş...
Rəngini, duruşunu dəyişməyən
Anam mənə süd verəndə necə var, elə,
Qoca nənəm can verəndə necə var, elə,
Atamız qışqıranda tək yerini dəyişməyən -
Qəlib daş... Dözümlü daş...

Gedib çıxanda məni salamladı
Məndən sadiq, məndən vəfalı daş.
Hanı biz evimizdən çıxanda
Göydən yerə yağan daş?
Hanı ölənlərim, olanlarım?
Elə bircə daş sağ qaldı?
Dərd daşım
Sirr daşım
Qardaşım daş, atam daş,
Məni sinəsində yaşadanım,
Adımı yadında saxlayan daş.

Gördüyüm ən qonaqpərvər,
Ən canıyanan, ən qoçaq.
Vətənə məndən yaxın,
Vətəni məndən çox sevən
Soy daşım,
Ad daşım
Məndən vəfalı adaşım.

# Cəmi 32 sayı işıq üzü gördü...

## "Füyuzat" azadlığın, maarifin və özünüdərkin ruhudur!



1906-cı il noyabrın 1-dən 1907-ci il noyabrın 1-nə qədər 32 sayı işıq üzü görsə də, "Füyuzat" jurnalı mətbuat tariximizdə mühüm izlər qoydu. Maarifpərvər Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə dərc olunan ictimai jurnalda baş redaktor Əli bəy Hüseynzadə ilə yanaşı, Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Səid Səlmasi, Abdulla Şaiq, Əhməd Kamal, Əhməd Raiq və başqalarının müxtəlif mövzularda yazıları dərc olunurdu.

"Füyuzat"ın 1-ci sayı dərc olunmazdan əvvəl onun haqqında ilk məlumata "Həyat" qəzetində rast gəlirik. "Həyat" qəzetinin son nömrəsində verilmiş elanda qeyd olunur:

"Həyat" qəzetəsi bu gündən etibarən tətil etdiyi üçün yerinə qəribən "Füyuzat" namilə ədəbi-fənni, ictimai-siyasi bir həftəlik məcmuə intişarə başlayacaqdır..."

Jurnalın ilk sayında məram və məqsədlərini açıqlayan Əli bəy Hüseynzadə "Həyat və meyli-füyuzat" məqaləsində füyuzat kəlməsinin mənasını açıqlayaraq yazırdı:

"Məcmuəmizə "Füyuzat" adı təsadüfi verilmiyor, bu nam həyatdan təbii olaraq təvəllüd ediyor... "Füyuzat" ləfzon "feyz"in cəmilcəmi olub rifah və bərəkətə, bolluğa, maddi və mənəvi nemətlərin bolluğuna, tərəqqiyyat və kəmalatın şəniəyyi-təcəllisinə dəlalət edərsə də, fəqət əsl məfhumu səadət və ələlxüsus səadəti-mənəviyyədir, həqiqi zövq və səfalərdən ibarət bir səadəti-mənəviyyədir. Həyat isə mənayi batinisilə daimi bir meyli-səadət, bir meyli-füyuzatdır".

"Füyuzat" - mənşəcə ərəb sözüdür və həyat gerçəklərini duymaq, dərk etmək, onlardan həzz almaq, feyziyab olmaq deməkdir. Abdulla Şaiq "Füyuzat"ı "islam aləmində görünməmiş ən möhtəşəm mətbuat orqanı" kimi qiymətləndirirdi. Jurnal qısa müddətdə göstərdiyi fəaliyyətlə aşağıdakı nailiyyətləri əldə etməyi bacardı:

füyuzatçılıq jurnalistika məktəbi yarandı;

eyni adlı ədəbi cərəyan yarandı;

Azərbaycanda müstəqil dövlət ideyasını alovlandırdı;

konstitusiyalı azad vətəndaş cəmiyyəti ideyasını yaratdı;

Azərbaycanda neoromantizmin əsasını qoydu və s.

"Füyuzat" jurnalı "türkləşmək, avropalaşmaq (müasirləşmək) və islamlaşmaq" ideyası altında yazılar dərc edir, türk xalqlarının mənəvi birliyinin təcəssümü olaraq turançılıq ideologiyasını təbliğ edirdi. "Füyuzat" təkcə Azərbaycanda deyil, bütün türk dünyasında maariflənmə, türkçülük və millətçilik ideyalarının yayılmasına çalışırdı. Buna görə də çarizmin Azərbaycandakı hakim qüvvələri jurnalın ideya-siyasi istiqamətindən qorxuya düşürdülər.

"Füyuzat" jurnalı dilinin qəliz olmasına görə tənqid olunurdu. Halbuki jurnalın bütün saylarında dilin mükəmməlləşdirilməsinə çalışılıb. Onun dilinin tədqiq olunması və bu məsələnin aydınlaşdırılması ilə bağlı hazırda çoxlu məqalələr, kitablar mövcuddur.

Jurnalın türkləşmək, islamlaşmaq və avropalaşmaq (müasirləşmək) ideyası bu gün azərbaycançılıq və müasirlik doktrinasının yaranmasında mühüm rol oynayır. Jurnalda dərc olunan yazıların tədqiqi və hərtərəfli öyrənilməsi müasir dövrümüzdə də aktual məsələlərdəndir.

"Füyuzat"ın ətrafında formalaşan ziyalı nəsli sonralar Azərbaycanın siyasi və mədəni həyatında həlledici rol oynadı. 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji əsasları da məhz "Füyuzat" məktəbinin ideyalarından qidalandı. Bəli, "Füyuzat" uzunömürlü olmadı, cəmi 1 il yaşadı. Amma onun izi silinmədi. O iz bu gün də Azərbaycan mətbuatında, düşüncəmizdə, dövlətçilik ideyasında yaşayır...

*Yeganə BAYRAMOVA*

# Torpağın səssiz qəhrəmanları...

## 1 noyabr onların günüdür



Əkib-becərməyi, heyvanları əhlilləşdirməyi hələ öyrənməmiş olan əcdadlarımız yabanı bitkilər toplayaraq, vəhşi heyvanları ovlayaraq qidalanır və həyatda qalmağa çalışırdılar. İndiki həyatımızda isə kənd təsərrüfatı sayəsində bu, xeyli asanlaşıb. Əkinçilik, bağçılıq, arıçılıq, maldarlıq, üzümçülük və s. bir çox qida sahələrini əhatə edən kənd təsərrüfatı sahəsi qida tədarükçüsü kimi insan varlığının təməl daşını təşkil edir. Bu sahənin inkişafı əsrlər boyu sivilizasiyaların inkişafına böyük töhfə verib. Kənd təsərrüfatı bitki və heyvan mənşəli məhsulların istehsalını, onların keyfiyyətinin və səmərəliliyinin yoxlanılmasını, satışa çıxarılmasını özündə ehtiva edir.

İqtisadiyyatda mühüm rol oynayan kənd təsərrüfatı inkişaf etməkdə olan ölkələr üçün iqtisadi sistemin əsası hesab olunur. İqtisadi cəhətdən strateji əhəmiyyətli və səmərəli olan kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi iqtisadiyyatın davamlı inkişafına zəmin yaradır. Ölkəmizdə bu sahənin inkişafına dövlət tərəfindən xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli fərmanı ilə hər il noyabrın 1-nin Azərbaycanda Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunması və bu günə həsr olunmuş xüsusi tədbirlərin keçirilməsi bunun əsas göstəricilərindəndir.

Dövlətimiz hər zaman kənd təsərrüfatı sahəsinin inkişafına və bu sahədə çalışan işçilərə xüsusi qayğı göstərir. Bu istiqamətdə atılan addımlardan biri də 2007-ci ildə Prezident İlham Əliyev tərəfindən kənd təsərrüfatına dövlət dəstəyi proqramına start verilməsidir. Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatının daha da inkişaf etdirilməsi üçün səmərəli fəaliyyət göstərərək ciddi nəticələr əldə edir. Nazirliyin təşəbbüsləri dövlət tərəfindən hər zaman dəstəklənir.

Son illərdə kənd təsərrüfatı sahəsində dinamik inkişaf qeydə alınır. Kənd təsərrüfatının ümumi məhsulunun dəyəri hər il daha da artır. Məhsulların ixracında müsbət nəticələr əldə olunur. İşğaldan azad edilmiş torpaqlarımızda kənd təsərrüfatının yenidən qurulması üçün "Ağıllı kənd" layihələri icra olunması da ölkəmizin hər keçən gün daha inkişaf edərək irəli getdiyinin sübutudur.

Müasir dövrdə kənd təsərrüfatı yalnız əkinçilik və heyvandarlıqla məhdudlaşmır. Yeni texnologiyalar, aqrar islahatlar, dövlət dəstəyi bu sahəni inkişaf etdirir. Lakin bütün bu yeniliklərin əsas dayağı yenə də insan əməyidir - əkinçi, çoban, mexanizator, bağban. Onlar olmasa, texnika da, texnologiya da mənasız qalar.

Azərbaycanda iş yerlərinin çoxu kənd təsərrüfatındadır. Bu sahənin həm iqtisadiyyatın inkişafında, həm də qida tədarükçüsü olaraq insanların həyatındakı rolu çox böyükdür. Məhz buna görə də kənd təsərrüfatı sahəsində çalışan işçilərin əməyi əvəzolunmazdır.

Bu gün ölkəmizdə kənd təsərrüfatı işçilərinə qayğı artmaqdadır. Subsidiyalar, güzəştli kreditlər, yeni suvarma sistemləri, təlimlər - bütün bunlar kənddə yaşayan insanın əməyinə verilən dəyərin göstəricisidir. Ancaq ən böyük dəyər, cəmiyyətin bu insanlara olan hörmətidir.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4939
Sifariş: 2220
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova